Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Şərqin qapısı - Naxçıvan

**Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə-mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2024**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Şərqin qapısı - Naxçıvan -** Naxçıvan Muxtar Respublikasının 100 illiyi münasibətilə-mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2024. – 117 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

## Tərtibçidən

Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan 1924-cü ildə muxtariyyət statusu qazanıb. 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasına və 1998-ci il dekabrın 29-da qəbul olunmuş Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına əsasən Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Muxtar dövlətin 45 nəfərdən ibarət parlamenti və hökuməti vardır. Konstitusiyaya əsasən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvan Muxtar Respublikasının Ali vəzifəli şəxsidir.

Naxçıvan Muxtar Respublikasının ərazisi 5,5 min kvadratkilometr, əhalisi 465, 7 min nəfərdir (01.01.2023). Naxçıvan Muxtar Respublikası paytaxt Naxçıvan şəhərindən və 7 inzibati rayondan təşkil olunub. 6 şəhəri, 9 qəsəbəsi, 203 kəndi vardır.

Naxçıvan Muxtar Respublikasının sərhəddi Türkiyə Respublikası ilə 15 kilometr, İran İslam Respublikası ilə 204 kilometr, Ermənistanla 246 kilometr təşkil edir.

Naxçıvan Muxtar Respublikası Zaqafqaziya yaylasının cənub-şərqində yerləşir. Dəniz səviyyəsindən orta yüksəkliyi 1450 metrdir. 11 iqlim tipinin 9-u muxtar respublika ərazisində mövcuddur.

Muxtar respublika ərazisinin çox hissəsini Kiçik Qafqazın Zəngəzur və Dərələyəz dağ silsilələri əhatə edir. Ən hündür zirvəsi Qapıcıq dağıdır (3904 m). Ərazinin üçdə bir hissəsini Arazboyu düzənliklər təşkil edir. 200-dən çox mineral su bulağı, 400-ə qədər böyük və kiçik çayı vardır.

Naxçıvan Muxtar Respublikasında Azərbaycanın nadir fauna və florası məskunlaşmış və onlar xüsusi mühafizəyə alınmışdır. Muxtar respublikanın təbiəti, flora və faunası qorunur. Xüsusi mühafizə olunan təbiət əraziləri muxtar respublika ərazisinin 28 faizini təşkil edir.

Naxçıvan ərazisinin əlverişli coğrafi mövqeyi və təbii sərvətlərlə zənginliyi səbəbindən insanlar ən qədim dövrdən burada məskunlaşmış və özünəməxsus mədəniyyət yaratmışlar. Bu ərazi Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin - Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin əsas mərkəzlərindən biri olmuşdur. Naxçıvan ərazisində Qazma, Kilit, Ərməmməd mağaraları, I Kültəpə, Ovçular təpəsi, Xələc yaşayış yerləri, Gəmiqaya abidələri, Oğlanqala, Çalxanqala kimi qala-şəhərlər və müdafiə istehkamları ən qədim dövrdən insanların burada yaşadığını təsdiq edir.

Muxtar respublika ərazisi tarixi abidələrlə zəngindir. XII əsrdə tikilmiş Yusif Küseyir oğlu, Möminə xatın, Gülüstan, Qarabağlar türbələri dünya əhəmiyyətli tarix-memarlıq abidələridir. Əlincəqala, Naxçıvanqala kimi tarixi abidələri qəhrəmanlıq simvoludur. 5 min illik şəhər mədəniyyətinə malik olan Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir.

Qədim tarixi və abidələri, müasir inkişafı, zəngin mədəniyyəti və təhlükəsiz həyat şəraiti muxtar respublikada turizmin inkişafına səbəb olan amillərdəndir.

Naxçıvanın ən qədim tarixə malik abidələri içərisində "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksinin xüsusi yeri vardır. "Əshabi-Kəhf"dən "Quran"ın "Əl-kəhf" ("Mağara") adlı 18-ci surəsində ayrıca bəhs olunması bu qədim ziyarətgahın islamaqədərki dövrdə də tanınmasının və məşhurlaşmasının daha bir sübutudur.

Naxçıvan şəhərinin cənubunda Nuh peyğəmbərin məzarüstü türbəsi ucalır. Təxminən 7500 il bundan əvvəl baş vermiş ümumdünya daşqını zamanı Nuh və ona iman gətirənlərin gəmisi ilk dəfə Naxçıvanda quruya çıxmış və insanlar burada məskən salmışlar. Təsadüfi deyil ki, "Naxçıvan" sözü "Nuh tərəfdarlarının çıxdığı yer" mənasını verir. Bundan əlavə muxtar respublika ərazisindəki imamzadələr və pirlər də turistlərin ziyarət etdiyi məkanlardandır.

Naxçıvan Muxtar Respublikası ərazisində müalicə turizmi də geniş yayılıb. Duzdağ Fizioterapiya Mərkəzi 1979-cu ildən fəaliyyət göstərir. Dəniz səviyyəsindən 1173 metr hündürlükdə yerləşən mərkəz 250 çarpayılıqdır. Mərkəzin yeraltı şöbəsi Naxçıvan şəhərindən 12,2 km aralıda yerləşir. Bronxial astma, allergik-infeksion peredastma, xroniki bronxit, polinozlardan əziyyət çəkən xəstələr Duzdağ Fizioterapiya Mərkəzində şəfa tapırlar. Culfa rayonunun 15 kilometr şimal-şərqində olan Darıdağ arsenli su müalicəxanasının termal suyu dəri xəstəlikləri üçün unikal müalicəvi əhəmiyyətə malikdir. Qeyd olunan müalicəxanalarda tibbi yardım göstərməyə geniş şərait və imkanlar vardır.

"Şorsu" müalicəvi vulkan palçığı revmatizm, revmatoid artrit, poliartrit, fəqərə osteoxondrozu, deformasiyaedici osteoartroz, psoriatik artrit, bexterev xəstəliyi, miozit, bursit, radikulit, nevrit, nevralgiya, sonsuzluq, trofiki xora kimi xəstəliklərdə üstün müalicəvi əhəmiyyətə malikdir. Aptek şəbəkələrində təklif olunan bu palçıqla müalicə applikasiya, tampon və ümumi palçıq vannası formasında həyata keçirilir.

Muxtar respublika ərazisi mineral bulaqlarla da zəngindir. Naxçıvanın "Badamlı", "Sirab", "Darıdağ" kimi mineral suları mədə-bağırsaq və digər xəstəliklərin müalicəsində əhəmiyyətlidir. Həzm yollarının iltihabı, xroniki qastrit, enterit, kolit, mədə və onikibarmaq bağırsağın yaraları, qaraciyər, öd kisəsi, böyrək, ürək, diabet, xəstəlikləri, maddələr mübadiləsinin pozulması, piylənmə zamanı tətbiq edilən bu mineral sular tez bir zamanda müsbət nəticə verir.

Naxçıvanın zəngin mətbəxi dillər əzbəridir. Naxçıvan mətbəxi bozbaş, çölmək pitisi, bozartma, çığırtma, dolma, kabab, xaş, əriştə, umac və sair ilə məşhurdur. Naxçıvan mətbəxində əriştə aşı, umac aşı, buğda unu və düyü unundan hazırlanmış halvalar, xəşil, quymaq kimi xəmir xörəkləri də turistlərə təklif olunur. Naxçıvanda lülə kabab, tikə kabab, basdırma kabab, tava kabab, saciçi və sair kabab növləri

bişirilir. Naxçıvanın göl və dağ çaylarında müxtəlif növ balıqlar yaşayır və Naxçıvan mətbəxində balıq yeməkləri – balıq kababları, qızartmaları, balıq basdırması hazırlanır. Naxçıvan mətbəxi cürbəcür şərbətlər, meyvə şirələri, şorabalar, salatlarla da zəngindir. Adətən yeməkdən sonra süfrəyə müxtəlif şirniyyatlar, mürəbbələrlə çay verilir. Naxçıvanın özünəməxsus şirniyyatlarından Ordubad qayqanağı və paxlavası, şəkərbura, növbənöv kətələr, bükmələr və sair geniş yayılıb.

Naxçıvanın ekoloji təmiz havası, günəş şüasının bolluğu və digər amillərin nəticəsidir ki, bu torpağın yetirdiyi meyvə, tərəvəz və digər məhsullar öz dadı və keyfiyyəti ilə fərqlənirlər.

Gözəl təbiəti, şəfalı bulaq suları, qədim və bənzərsiz tarixi abidələri, müasir şəhər infrastrukturu, bankçılıq və hotelçilik xidmətləri ən yüksək səviyyədə olan Naxçıvan Muxtar Respublikası dünyanın dörd bir yanından gələn turistlərə məmnuniyyətlə ev sahibliyi edir.

## Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur.

Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi

görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir. Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə, qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar.

Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.

Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır.

Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin

mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika yaşıl enerji zonası elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğunu nəzərə alaraq qərara alıram:

1. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi geniş qeyd olunsun.
2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.
3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə bağlı tədbirlər planının hazırlanmasını və həyata keçirilməsini təmin etsin.
4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 30 dekabr 2023-cü il




**Bölmə I**
**Bura vətəndir...**

**Mən səni vəsf edim bir canan kimi,**
**Sarılım qoynuna mehriban kimi.**
**Göyündə ulduzlar sayrışan kimi.**
**Ey könül mülkümün barı, Naxçıvan,**
**Ellərin sevgili yarı, Naxçıvan.**
**...Səndə tarixlərin çox nişanı var,**
**Hər daşın köksündə ox nişanı var.**
**İndi nə xanı var, nə sultanı var.**
**Ey könül mülkümün barı, Naxçıvan,**
**Ellərin sevgili yarı, Naxçıvan.**

**Dünya mədəniyyətinin beşiklərindən biri olan qədim Naxçıvanın hər qarışı ilk insan yaşayış yerləri, erkən şəhər mədəniyyəti izləri, möhtəşəm tarixi abidələrlə zəngindir. Naxçıvanda ilkin şəhər mədəniyyəti 5 min il bundan əvvəl formalaşmış, sənətkarlıq və mədəniyyət inkişaf etmiş, Duzdağda mədən üsulu ilə duz çıxarılmasına başlanılmışdır. Bütün bunlarla yanaşı, Azərbaycanın tarixi ərazisinin coğrafi mövqeyi və əlverişli şəraiti, Böyük İpək yolunun üzərində yerləşməsi də qədim dövlətlərin diqqətini cəlb etmiş, şəhər amansız hücumlara məruz qalmışdır.**

Naxçıvan çoxəsirlik tarixə və zəngin maddi-mədəniyyət abidələrinə malik olan ən qədim Azərbaycan torpağıdır. Burada hələ neolit dövründə yerli tayfalar oturaq həyat sürmüş, müxtəlif təsərrüfat və sənət sahələri ilə məşğul olmuşlar. "Naxçuan", "Naxcuan" və ya "Naqşecahan" adlanmışdır.

Bir sıra Fars və Türk mənbələrində Naxçıvan "Nəqşicahan" kimi göstərilir. Naxçıvan sözünün türk mənşəli olduğunu "Naxçıvan" sözü ilk mənbələrdə müxtəlif şəkildə verilmişdir. Şəhər yunanca "Naksuana", pəhləvicə "Naxç", ərəbcə - "Nəşəva" və ya onu Akçıvan-Naxçıvan-Oğuz ağ ərənlər vətəni kimi mənalandıranlar da vardır. Son tədqiqatlar Naxçıvan sözünün mənşəyini elam dilindəki "Nahhunte" sözü ilə əlaqədar izah edirlər. "Van" toponimik formatının qədimliyini nəzərə aldıqda şəhərin ilk adının Nahhuntevan olduğunu düşünmək olar. Bu adın sonralar yerli türk əhalisi tərəfindən Naxçıvan şəklinə düşməsi mümkündür.

Naxçıvan Yaxın Şərqin ən məşhur qədim şəhərlərindən biridir. Onun 3500 ildən çox yaşı vardır. Naxçıvan haqqında ilk yazılı məlumata Klavdiy Ptolemeyin "Coğrafiya" əsərində rast gəlinir. O, Naxçıvanın hələ miladdan öncə II yüzillikdə şəhər olduğunu xəbər verərək yazmışdır: "Naksuana geniş ərazisi olan

Vaspuraqanın mərkəzidir. 37 nahiyədən ibarət olan bu ölkənin bir nahiyəsini də Naksuana təşkil edir". Son tədqiqatlar şəhərin bina edilməsinin miladdan öncə II minilliyin ortalarına (1539) aid olduğunu göstərir.

Böyük karvan yolunun üzərində yerləşən Naxçıvan şəhəri miladın III yüzilliyində sasanilər tərəfindən dağıdılmışdır. Burda VI yüzilliyin birinci yarısından VII yüzilliyin birinci yarısına qədərki dövrdə sasanilərə məxsus zərbxanalarda üzərində "Naxç" sözü yazılmış gümüş pullar kəsilmişdir.

**Naxçıvan xanlığı**

1747-ci ildə Nadir Əfşar sui-qəsd nəticəsində öldürüldükdən sonra Azərbaycanda iyirmiyə qədər müstəqil feodal dövlətlər - xanlıqlar yarandı. Azərbaycan xanlıqları qüzey və güneydə iki qrupa bölünürdü:
Qüzeydə: Şəki, Quba, Gəncə, Bakı, Dərbənd, Naxçıvan, Şirvan, Talış, İrəvan, Salyan, Qarabağ, Cavad.
Güneydə: Təbriz, Urmiya, Ərdəbil, Xoy, Qaradağ, Sərab, Marağa, Maku. XVIII əsrin ortalarında kəngərli tayfa başçısı Heydərqulu xan özünü Naxçıvanın xanı elan etmişdir. Naxçıvan xanlığına Naxçıvan, Şərur, Ordubad, Mehri, Qafan və başqa əyalətlər daxil idi. 1787-ci ildə Naxçıvanın xanı Kalbalı xan oldu. Xanlıqlar dövründə Naxçıvanda bir qədər dirçəliş baş verdi.
Birinci Rusiya - İran müharibəsi (1805-1813) illərində Naxçıvan xanlığı Gülüstan müqaviləsinə görə İranın hakimiyyəti altında qalmışdı.
İkinci Rusiya - İran müharibəsi (1826-1828) gedişində - 1827-ci ildə rus ordusu Naxçıvanı tutmuşdu. Naxçıvan xanlığının zorla Rusiyaya birləşdirilməsi 1828-ci ildə Rusiya və İran arasında bağlanan Türkmənçay müqaviləsi ilə başa çatdırılmışdı.

Naxçıvan 1841-ci ildə qəza mərkəzi oldu. Onun ərazisi 1841-ci ildən Gürcüstan - İmeretiya, 1850-ci ildən isə əslən Azərbaycanlıların idarəçiliyində olan İrəvan quberniyasının tərkibinə daxil idi.

**Sovetlər Birliyi dövründə Naxçıvan**

Naxçıvan Azərbaycanda bolşeviklər hakimiyyətə gəldikdən sonra iyulun 28-də Naxçıvan Sovet Sosialist Respublikası yaradıldı. Àli orqan olan Naxçıvan İnqilab Komitəsi seçildi. İnqilab Komitəsi Naxçıvanı Azərbaycanın ayrılmaz hissəsi elan etdi. Moskvada bağlanmış Moskva və Qars müqavilələrinə əsasən Naxçıvan ölkəsinin üçüncü bir dövlətə güzəştə gedilməməsi şərti ilə Azərbaycanın himayəsinə verilməsi qərara alınmışdı. Naxçıvanın ərazisinin qorunmasında Moskva və Qars müqavilələrinin mühüm əhəmiyyəti olmuşdur. Sovetlər Birliyi dövründə Naxçıvanın bir sıra ərazisi Ermənistana verilmiş, qonşu Türkiyə Respublikası ilə iqtisadi, siyasi və mədəni əlaqələrin qarşısı alınmışdır.

Naxçıvan 1921-ci il martin 16-dan başlayaraq əvvəlcə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan sonra Naxçıvan diyarı, 1924-cü il fevralın 9-dan Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

Azərbaycan və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan MR istiqlaliyyət qazanmaq üçün uzun müddət mübarizə aparmışdır. SSRİ-nin dağılma prosesi 1980-cı illərin sonunda Qarabağ hadisələrinin təkrar alovlandırılmasına və azərbaycanlılarla ermənilərin qarşıdurmasına gətirib çıxartdı. Müstəqillik hərəkatını boğmaq üçün 19 Yanvar 1990-cı ildə Sovet Ordusu hissələri Bakıya girərək qanlı qırğın törətdi. Bundan 8 saat əvvəl rus-erməni birləşmələri Naxçıvan MR-in Kərki kəndini işğal etdi, sərhəd boyu intensiv hücuma keçdi. Yüzlərlə Azərbaycanlı şəhid oldu. Sərhədlərinin qorunmasına

təminat ala bilməyən Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Soveti Moskva və Qars müqavilələrini əsas götürərək SSRİ-nin tərkibindən çıxmaq barədə qarar qəbul etdi. Bu, faktiki olaraq SSRİ-nin süqutunun başlanğıcı idi.

Azərbaycanın digər torpaqları kimi Naxçıvan da rusların hakimiyyəti altına keçdikdən sonra ermənilərin həmin torpaqlarda yerləşdirilməsinə başlanmışdır. Bilindiyi kimi, bu bölgələrdə erməni əhalisi azlıqda qaldığından 1828-ci ildə Güney Azərbaycandan, Təbriz və çevrəsindən, 1829-1830-cu illərdə Ərzurum və çevrəsindən ermənilər köçürülərək Naxçıvan və İrəvan dairəsində yerləşdirilmişdi. 1905-ci ildən başlayaraq Naxçıvanda da ermənilərlə azərbaycanlılar arasında qırğın baş vermişdi. 1917-ci ildən ermənilər Naxçıvana ərazi iddiaları ilə çıxış etmişlər.

**Muxtar dövlət**

Naxçıvan Muxtar Respublikası hüquqi statusuna görə Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Sahəsi 5,5 min kvadrat kilometr, əhalisi 465,7 min nəfərdir (2023). Hakim din islam, yerli və rəsmi dil Azərbaycan dili, paytaxtı Naxçıvan şəhəri, ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyası müstəqil Azərbaycanın 1995-ci il noyabrın 12-də referendum yolu ilə qəbul olunmuş ilk konstitusiyası əsasında hazırlanıb, 1998-ci il aprelin 28-də muxtar respublikanın Ali Məclisində qəbul edilərək həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisində təsdiq edilib və 1999-cu il yanvarın 8-dən qüvvəyə minib. Konstitusiyanın 1-ci maddəsinə görə, Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusu Azərbaycan Respublikası Konstitusiyası və 1921-ci il Moskva və Qars müqavilələri ilə müəyyən edilir.

Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikası Konstitusiyası ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildir. Muxtar respublikada dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edilir; qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının parlamenti – Ali Məclisi, icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, məhkəmə hakimiyyətini Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir.

## Bölmə II
## Yubiley tədbirlərinin keçirilməsi
## Naxçıvan bu gün dinamik inkişaf edən qədim Azərbaycan torpağı, türk yurdudur.

**"Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhvələr vermişdir".**

**Ümumilli lider Heydər Əliyev.**

2023-cü il dekabrın 30-da Prezident İlham Əliyev Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzaladı. Sərəncamda Naxçıvanın Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutması, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynaması, əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr verdiyi qeyd olunub. Xüsusilə Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğu nəzərə alınaraq muxtar respublikanın 100 illik yubileyinin geniş qeyd edilməsi öz əksini tapıb.

Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə bağlı belə bir dövlət sənədinin imzalanması çox böyük əhəmiyyət daşıyır. Çünki 1924-cü ildə Naxçıvana Azərbaycanın tərkibində muxtar respublika statusunun verilməsi tarixi zərurətdən yaranmışdı, eyni zamanda bu cür yüksək statusa malik olmasına baxmayaraq, son iki yüz ildən artıq bir dövrdə davamlı olaraq haqqında əsassız ərazi iddialarının irəli sürüldüyü bir bölgə kimi Naxçıvan daim ermənilər və onların havadarları tərəfindən ön planda saxlanılıb. Ən yaxın tarixin təcrübəsi də göstərir ki, əgər ötən əsrin 90-cı illərində Ümummilli Lider Heydər Əliyev Naxçıvanda olmasa idi, bu qədim Azərbaycan torpağı da işğala məruz qalacaqdı . Hər halda o dövrün reallıqları bunun üçün münasib idi. Təsadüfi deyil ki, Sərəncamın preambula hissəsində də məxsusi olaraq vurğulanır: "… Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir".

Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyilə ilə əlaqədar olaraq, respublikamızın bir çox təhsil ocaqlarında olduğu kimi F.Köçərli adına Respublika Uşaq Kitabxanasında da geniş tədbirlər planı hazırlanmışdır. Belə tədbirlər planına Naxçıvan Muxtar Respublikasının tarixinə aid bir çox ədəbiyyatları (ensiklopediyalar, kitab, qəzet, jurnal və metodiki vəsaitlər) əks etdirən sərginin təşkil olunması olduqca əhəmiyyətlidir. Bu cür sərgilərin olması, daha vacib və məqsədəuyğundur. Çünki kitabxanaya gələn oxucuların diqqətini belə sərgilər daima cəlb edir. Kitabxanada təşkil olunan kitab sərgiləri ilə yanaşı, oxucuların diqqətini daha da cəlb etmək məqsədilə digər əyləncəli sərgiləri də qarşılıqlı şəkildə təşkil etmək olar. Bu məqsədlə ayrıca guşə təşkil olunmalıdır. Burada Naxçıvan Muxtar Respublikası haqqında ədəbiyyat nümayiş olunmaqla yanaşı, divarlarda rayonun gözəl guşələrinin fotoları, rəsmləri asılır və tarixi abidələrin maketlərindən istifadə olunur. Sərgilərin təşkili zamanı

kitabxanaçılar Naxçıvan Muxtar Respublikasına aid sitatlardan, hikmətli sözlərdən geniş istifadə etməlidir. Buna nümunə olaraq ümummilli liderimiz Heydər Əliyevin, İlham Əliyevin və s. Naxçıvana dair söylədikləri sitatları göstərmək olar. İndi isə kitabxanada təşkil olunan sərginin nümunəsini sizlər üçün veririk.

1. Başlıq: **"Naxçıvan Muxtar Respublikası-100"**
2. **Kitabların nümayişi**
3. Dövrü mətbuatda nəşr olunan rəsmi sənədlər, Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı, Naxçıvanın tarixi, arxeologiyası, folklor örnəkləri, təbiəti, ədəbi mühiti, tarixi şəxsiyyətləri, ziyalıları və sair mövzularda, həmçinin 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı igid oğulların qəhrəmanlığından bəhs edən Azərbaycan və digər dillərdə ədəbiyyatların, qəzet və jurnal materiallarının nümayişi
4. Ümumilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası haqqında söylədikləri
5. Görkəmli insanların Naxçıvan Muxtar Respublikası haqqında söylədikləri
6. "Naxçıvan Muxtar Respublikası - 100" adlı elektron məlumat bazasının nümayişi
7. Şeir parçası

Kitabların nümayişi













FƏRMAN XƏLİLOV
NAXÇIVANIN ELMİ, ƏDƏBİ VƏ MƏDƏNİ MÜHİTİ: TƏDQİQLƏR
Dördüncü kitab


NE
NAXÇIVAN ENSİKLOPEDİYASI


NAXÇIVAN XANLIĞI


NAXÇIVAN DİALEKT VƏ ŞİVƏLƏRİNİN LÜĞƏTİ


NAXÇIVAN
TARİXİNDƏN SƏHİFƏLƏR
Sabaha-inamla.az


ELBRUS İSAYEV
BÖYÜK
İPƏK YOLU
və NAXÇIVAN


Naxçıvan
90 il
Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi


Naxçıvan
90 il


"MƏN VƏ MƏNİM DÜNYAM"
GÜVƏNCİN nağılları
Naxçıvan


NAXÇIVAN MUXTAR RESPUBLİKASI
85
ƏRƏBYENGİCƏ
АРАБ ЕНГИДЖА * ARABYENGIJA
ABBAS SEYİDOV
VƏLİ BAXŞƏLİYEV


NAXÇIVAN
MUXTAR RESPUBLIKASININ
QIRMIZI KİTABI


VƏLİ BAXŞƏLİYEV, FİZZƏ QULİYEVA
NAXÇIVANIN TARİXİ ABİDƏLƏRİ

## Görkəmli şəxsiyyətlərin Naxçıvan Muxtar Respublikası haqqında söylədikləri sitatlar

1. "...Naxçıvan Azərbaycanın qədim diyarı, qədim torpağı, ayrılmaz guşəsidir. Naxçıvanın qədim, zəngin mədəniyyəti Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir...Tarixən həmişə Şərur bölgəsinin torpaqları bol, bərəkətli, məhsuldar olub...Şərurun Ərəbyengicə kəndi suqovuşanda yerləşir. Araz və Arpa çayları burada qovuşurlar..."

**Heydər Əliyev**
**Ümumilli lider**

2. "Naxçıvanın muxtariyyatı tarixi nailiyyətdir. Biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyatı əldən getmiş başqa torpaqlarının qaytarilması üçün ona xidmət edən çox mühüm amildir. Biz bu amili qoruyub saxlamalıyıq"

**Heydər Əliyev**
**Ümumilli lider**

**3.** "Naxçıvana müxtariyyat vermək, Moskva, Qars müqavilələrində Naxçıvanın müqəddəratını o illərdə həll etmək asan məsələ deyildi. Amma o vaxt Azərbaycanın milli mənafeyini qoruyan adamlar bunu etdilər. Mən bunu tarixi nailiyyət hesab edirəm"

**Heydər Əliyev**
**Ümumilli lider**

4. Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır.

**Heydər Əliyev**
**Ümummilli lider**

5. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarix-memarlıq abidələri yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir. Naxçıvanın qədim, zəngin tarixi Azərbaycan tarixinin çox parlaq səhifələrindəndir. Bizim əsas məqsədimiz Naxçıvanın tarixini hərtərəfli öyrənmək, tədqiq etmək, onları elmi və populyar kitablarda dərc etmək, təbliğat materiallarında istifadə etməkdir.

**Heydər Əliyev**
**Ümummilli lider**

6. Çox şadam ki, Naxçıvan uğurla, sürətlə inkişaf edir, böyük quruculuq, abadlıq işləri aparılır. Son illər ərzində Naxçıvan böyük inkişaf yolu keçmişdir... Hesab edirəm ki, bu gün Naxçıvan Muxtar Respublikasının çiçəklənmə dövrüdür. Çünki bütün istiqamətlər üzrə işlər uğurla gedir və gözəl nəticələr var.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

7. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan ölkəmizin tarixində və müasir inkişafında möhkəm yer tutan əsas mərkəzlərdən biridir. Bu diyar Azərbaycanda insanların ilkin məskunlaşma zamanından protoazərbaycanlıların formalaşdıqları, türk-oğuz

qəbilə-tayfa birliklərinin yaranmasına qədərki ən qədim dövrlərdən etibarən həmişə ulu əcdadlarımızın məskənlərindən biri olmuşdur. Bir sıra dünya hadisələri və regional proseslər Naxçıvanın ilkin sivilizasiyaların əsas mərkəzlərindən biri olduğunu sübut edir.

**İsa Həbibbəyli**
**akademik**

8. Son illərdə muxtar respublikada aparılan tikinti, quruculuq və abadlıq işləri nəticəsində Naxçıvan şəhəri, rayon mərkəzləri, qəsəbə və kəndlər göz oxşayır, Şərq və Qərb memarlıq elementlərini özündə birləşdirən sosial obyektlər, inzibati binalar, yaşayış evləri diyara gözəllik verir, bu işi görənlərin əməyi yüksək qiymətləndirilir... Xan sarayı, Zaviyyə mədrəsə binası, Came məscidi, İmamzadə kompleksi, Buzxana, "Naxçıvanqala" TarixMemarlıq Muzey Kompleksi, Xanəgah Abidəsi Kompleksi, Gülüstan türbəsi, Möminə Xatın və Yusif Küseyir oğlu türbələri, Xanlıqlar İmamzadəsi və onlarca tarix və mədəniyyət abidəsi bərpa olunmuş, 1200-dən artıq abidə qeydə alınmış, pasportlaşdırılmış və onlar üzərində tədqiqatlar aparılır. Bu gün Naxçıvanda tarixi-memarlıq abidələrində Şərq elementləri ilə müasirlik qovuşur, bu elementlər isə şəhərə xüsusi yaraşıq verir, onu daha da gözəlləşdirir.

**İsmayıl Hacıyev**
**Akademik**

**9. Sinəmdə o yerin dağ havasıdır,**
**Qaynar bulaqları qaynar qanımda.**
**Mənim ürəyimin bir parçasıdır**
**Doğma Şahbuzum da, Naxçıvanım da.**

**Məmməd Araz**
**Xalq şairi**

10. ...Xalq etimologiyasına əsasən, Naxçıvan toponimi "Nuh yurdu", Naxçıvan deməkdir. Rəvayətə görə, Nuh Peyğəmbərin gəmisi tufandan sonra bu əraziyə yan alıb. Bununla bağlı dünyanın bir sıra nüfuzlu mifologiya alimləri elmi dəlillər irəli sürürlər... Bu mənada Naxçıvan tufanların dağıdıb param-parça etdiyi bəşəriyyətin yenidən binə olunduğu yerdir. Məsələnin mifoloji tərəfini kənara qoysaq, bu qədim Azərbaycan torpağının indi də tarix üçün eyni əhəmiyyəti daşıdığını görərik. Naxçıvan bu gün də yenidən qurulan, inkişaf edən, yüksələn, nümunə yaradan, hər tərəfə hüzur, sevgi, səmimiyyət saçan önəmli bir dünyadır.

**Hüseynbala Mirələmov**
**professor**

11. Naxçıvan Azərbaycanın ən qədim diyarı olduğu kimi, həm də ən yeni, ən müasir diyarıdır. Tarixi yaddaşımızı təzələyib ümumiyyətlə bəşər sivilizasiyasının keçmişinə nəzər salsaq, ən erkən tarixi mərhələlərdə də yenə Naxçıvanın bir mərkəzi coğrafiya kimi qarşımıza çıxdığını görərik. Akademik tarixin xatırladığı mədəniyyət və dövlətçilik ənənələrinin kökü beş min il öncəyə gedib çıxır. Təqribən elə beş min il öncə də bütün tarixi qaynaqlarda bu və ya digər şəkildə Naxçıvanın adı çəkilir. Əgər biz bu qaynaqların ayrı-ayrı coğrafiyalarda yerləşən mənbələrinə diqqət yetirsək, görəcəyik ki, bu, çox geniş, çoxşaxəli bir siyasi coğrafiyanı əhatə edir.

**Hikmət Babaoğlu**
**millət vəkili, professor**

12. Naxçıvan Muxtar Respublikasının ərazisində İslam mədəniyyətini əks etdirən çoxsaylı tarixi-memarlıq abidələri mövcuddur. Bu mühüm maddi və eyni zamanda, mənəvi sərvətlərimizin sırasında muxtar

respublikanın müxtəlif bölgələrində yerləşən, peyğəmbər övladlarının dəfn olunduğu imamzadələrin özünəməxsus əhəmiyyəti, xüsusi yeri var. Naxçıvanın on üç əsrdən artıq bir dövrünü özündə təcəssüm etdirən bu dəyərli abidələr yalnız ölkəmizin deyil, bütövlükdə, müsəlman Şərqinin qədim sənətkarlıq, xüsusilə də memarlıq ənənələrinin, çoxəsrlik tarixi keçmişinin yadigarlarıdır.

**Rauf Kəngərli**
**AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosunun rəhbəri**

13. Böyük şəxsiyyətlər yurdu – Naxçıvan dünyanın ən qədim yaşayış məskənlərindən biridir. Qardaş Türkiyəyə açılan yeganə qapı olan bu qədim diyarda aparılmış arxeoloji qazıntılar zamanı tapılan maddi mədəniyyət nümunələri, duz mədənində aşkar edilmiş daş duz parçasının içərisində daşlaşmış balıq silueti, Gəmiqaya yazılı abidələri, dağ süxurlarının və torpaq qatlarının öyrənilməsi və digər tapıntılar bu məmləkətin ən qədim yaşayış məskənlərindən biri olduğunu təsdiqləyir. Bu diyarda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşmışdır.

**Bəxtiyar Əsgərov**
**filologiya üzrə fəlsəfə doktoru**

14. Naxçıvan Televiziyasında Naxçıvanın şərəfli tarixi həqiqətləri, dünəni və bu günü haqqında çəkilən, istehsal olunan yeni filmlərə, müxtəlif yeni təsviri materiallara baxdıqca qəlbim fərəh hissiylə dolub-daşır, köksümə sığmayan sevinc duyğuları ilə naxçıvanlı dostlara, həmkarlarıma minnətdarlıq edir, ruhumda yaradıcılıq uğurlarının, zəfər zənglərinin möhtəşəm qələbə səslərini eşidirdim. Məni ən çox sevindirən, qəlbən rahat edən o

idi ki, həmin filmlərdə saf, səmimi bir yaradıcı ovqat, kosmetik bəzək-düzəksiz gerçək bir Naxçıvan, Vətən sevgisi vardı; bu sevginin damarlarında tarixin və bu günün NAXÇIVAN HƏQİQƏTLƏRİ DÖYÜNÜRDÜ; o qəlb döyüntülərindən Gəmiqaya, Əshabi Kəhf, Əlincə, Ağrıdağ zirvələrinin, beş min illik Naxçıvan ŞƏHƏR MƏDƏNİYYƏTİNİN SƏSİ gəlirdi; bir sözlə, həmin filmlərdə tarixlə tarixçiliyin, sənətlə sənətkarlığın, sənətə az qala romantik sevgi ilə rasional, realist professionallığın tam, bütöv vəhdətini gördüm.

**Sadıq Elcanlı**
**Əməkdar jurnalist**

## Ümumilli lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası haqqında söylədikləri

Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 illiyi ilə bağlı keçirilən tədbirlərdən biri də kitab müzakirəsidir. Bildiyiniz ki, qədim və müasir diyar, gündən-günə gözəlləşən Naxçıvan Muxtar Respublika haqqında çox deyilib, çox yazılıb. Elə bu yazılar sırasına biridə əlavə olunub ki, bu da haqqında söz açacağımız “Naxçıvanım göz nurum” adlı almanaxdır. Kitabın müzakirəsi üçün tədbirə şair və yazıçılar, elm xadimləri, tədqiqatçılar, ədəbiyyatşünaslar, tələbə və şagirdlər dəvət olunur.




Kitabxanaçı tədbiri açıq elan edir.

Odlar yurdu Azərbaycanımızın qədim və ayrılmaz bir hissəsi olan Naxçıvanı "Şərqin qapısı" adlandırırlar. Mövcudluğu dövründən bu diyar dünya sivilizasiyasının aparıcı mərkəzlərindən biri olmuş, bəşər mədəniyyətinin, həmçinin qədim Şərqin mədəni ocaqları sırasında durmuşdur. Tarixin səhifələrini vərəqlədikcə görürük ki, Naxçıvanda dünya şöhrətli siyasətçilər, elm, incəsənət, mədəniyyət və ədəbiyyat dühaları yetirmiş və yetirməkdədir.

Bu qədim və bərəkətli torpağın qoynunda möhtəşəm bir Çinar ağacı kök atır. Bu Çinarın göylərə ucalan budaqlarında bəşəri dəyərləri açıb dünyaya bəyan edən, elmi-əxlaqi təsəvvürün şahı sayılan Nəsirəddin Tusi kimi elm xadimi, Azərbaycan tarixinin böyük bir hissəsini əks etdirən Məmməd Səid nəsri, Tanrısı gözəllik və sevgi olan Hüseyn Cavid poeziyası, qaranlıqlar içində zillət çəkən xalqını "Molla Nəsrəddin" adı ilə güldürən və gülə-gülə də düşündürən Mirzə Cəlil satirası yaşayır. Bu Çinarın İslam Səfərli, Məmməd Araz,

Adil Babayev, Hüseyn İbrahimov, Hüseyn Razi, Əliyar Yusifli kimi pöhrələri XX əsrin ikinci yarısından sonra əzəmətli budaqlara dönmüşlər. İllər ötdükcə bu ədəbi-bədii Çinarın yeni pöhrələri boy atır, sərt sınaqlardan keçərək bərkiyir, özünə layiq yerlər tutur. Yaradıcılıqları ilə Azərbaycan ədəbiyyatını zənginləşdirən Kəmalə Ağayeva, Elmira Qasımova, Güllü Məmmədova, Elman Həbib, Vaqif Məmmədov, Asim Yadigar, Muxtar Qasımzadə, Xanəli Kərimli, Hüseyn Əsgərov, Qatar Qərib, Elxan Yurdoğlu, Nərgiz İsmayılova... Naxçıvan torpağında yaşayıb-yaratmaqla doğma torpağa məhəbbətlərini öz əsərlərində tərənnüm etmişlər.
Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun dəstəyi ilə "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində 73 şairin 102 adda şeirləri, 9 müəllifin poemaları, bir povestindən ibarət "Naxçıvanım – göz nurum" adlı almanaxı çap edilərək oxuculara təqdim olunmuşdur. Kitab Xalq şairi Məmməd Arazın "Qızlar bulağı" şeiri ilə açılır. Hər misrası ilə qəlbimizi ovsunlayan sevimli şairimiz Məmməd Araz öz poeziyasında doğulduğu Naxçıvan torpağını ürəyinin bir parçası bilir. "Bu yerlər, o yerlər" şeirində deyir:

***Budur, uşaqlığım keçən o yerlər,***
***Çadırdaş ətəyi, Nursu bulağı.***
***Burda böyümüşəm, belə deyirlər,***
***İnana bilmirəm, bilmirəm axı.***

Batabatın qəlb ovsunlayan gözəlliyi, Xalxal meşəsinin füsunkarlığı, Arpaçayın axarı, Duzdağın süfrələr bəzəyən neməti, Əlincənin əzəməti, Bəhruz Kəngərli kimi sənətkarlar, Koroğlu, Babəktək oğullar, xumargözlü qızlar İslam Səfərlinin şeirlərində bədiiləşmiş, bunların bir çoxuna mahnılar bəstələnmişdir. Bu ənənəyə sadiq qalmış nəğməkar şairin "Batabat bulağı" və "Xalxal meşəsi" şeirləri almanaxda yer almışdır:

***Demirəm, uca bir dağ belindəsən,***
***“Aran meşəsi”sən el dilində sən,***
***“Naxçıvan çayı”nın sahilində sən,***
***Boy at, qoy İslamın gülsün nəğməsi,***
***A Xalxal meşəsi, Xalxal meşəsi.***

Muxtar respublikanın elə guşəsi yoxdur ki, Hüseyn Razi şeirlərində tərənnüm olunmasın. “Əlincə qalası”, “Ordubada gəlin”, “Duz dağı”, “Salvartı”, “Batabat”, “Naxçıvandadır” və digər şeirlərində şair muxtar respublikanın gözəlliklərini poetik dillə qələmə almışdır. Əsərləri sevilə-sevilə oxunan Əliyar Yusiflinin “Naxçıvanam” və “Əlincə qalası” şeirləri də almanaxda yer almışdır. Şair müqəddəs və məğrur yerlərlə oxucusunu tanış edir, bu şeirlərdə doğma diyara məhəbbəti daha poetik, daha doğmadır:

***Araz üstə dayanmısan mayak tək,***
***Gen sinənə yaraşıqdır gül-çiçək.***
***Minarələr buluddan nəm çəkəcək,***
***Ana yurdum vüqarımsan, Naxçıvan,***
***Abidələr diyarısan, Naxçıvan!***

Naxçıvan torpağının Məhsətisi şairə Kəmalə Ağayevanın “Doğma Naxçıvanım” və “Quran əllər var olsun” şeirlərində doğma el-obaya məhəbbət hissləri ümumiləşmişdir. Elman Həbibin yaradıcılığında Naxçıvan mövzusu bir neçə bəndlik şeirdən başlamış və “Naxçıvannamə” adlı bütöv bir kitaba dönmüşdür. Ümumiyyətlə, Elman Həbib yaradıcılığında muxtar respublikamızın dünəni, bu günü, sabahı şair istedadına xas olan səviyyədə tərənnüm olunmuşdur. Şair-publisist Vaqif Məmmədov da qədim diyara olan məhəbbətini özünəməxsus tərzdə ifadə etmişdir. Muxtar respublikamızın alınmaz qalası hesab edilən Sədərək haqqında bir çox şeirlər yazan Vaqif Məmmədovun “Naxçıvan nəğməsi” şeiri daha poetikdir. Yaşı beş minə çatan Naxçıvanın Əshabi-

Kəhfi möcüzə, Şəruru hünər meydanı, Ordubadı yaşıl ada, Zorbulağı zor axandı, şairin Batabat – cənnət bağı, Sədərək qeyrət qalası kimi tərənnüm olunan şeirində gözlərimiz önündə canlı tablo yaradılmışdır. Araz üstə qərar tutan, yaşı əsrlərlə ölçülən doğma Naxçıvanımızın müstəqillik yaşı çox olmasa da, yüksək tərəqqi ilə inkişaf etməsi, tarixin yaddaşında əbədi həkk olunan yeni abidələrin tikilməsi qələm sahiblərinin qəlblərini riqqətə gətirir və bir-birindən gözəl əsərlər yaranır.
Ulu öndər Heydər Əliyevin: "Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə yaşadan bir diyardır" müdrik fikrini yaradıcılığına epiqraf seçən şair-publisist Muxtar Qasımzadə "Gəmiqaya", "Oğlan qala, qız qala", "Əlincə", "Fərhad evi", "Gülüstan", "Qarabağlar türbəsi" kimi şeirlərində qızıldan qiymətli örnəklərimizə tariximizin canlı şahidləri kimi poeziya qiyafəsində bir daha ömür qazandırmışdır. Kitabdakı "Könül dostu Naxçıvanım" şeirində də şair öz ənənəsini davam etdirir:

***Qürur duydum Əcəmindən, müdrik öndər Əlisoydan,***
***Dədəm Qorqud dastanından məhəbbətlə dolu boydan,***
***Əlincədən, Arpaçaydan, Qazan göldən, Ulu çaydan,***
***Atabəyim, Hinduşahım, dahi Tusim-kəhkəşanım,***
***Ata yurdum, ana yurdum, könül dostum Naxçıvan!***

"Naxçıvan – göz nurum" almanaxında muxtar respublikamızın digər tanınmış şairlərinin də şeirləri yer almışdır. Hər bir şeirdə bu gözəl diyar məhəbbətlə tərənnüm olunmuşdur.
Asim Yadigarın "Kəlba Musa çeşməsi", Fərəc Fərəcovun "Müstəqillik yollarında", Muxtar Qasımzadənin "Naxçıvanqala haqqında ballada", Zeyqəm Vüqarın "Hər oğul qazanmır el məhəbbətin", Məmməd Tahirin "Gəncləşən şəhər", Qafar Qəribin "Bu şəhər gördüyün o şəhər deyil", Elxan Yurdoğlunun "Naxçıvan dastanı", Zaur Vedilinin "Nuh yurdu", Nazəni Həsənovun "Dahi rəhbərin bir iş günü" kitabın poemalar

bölməsində dərc olunmuşdur. Nəsr bölməsində isə istedadlı alim, yazıçı, bir çox elmi və bədii kitabların müəllifi Nərgiz İsmayılovanın “Əcəmi” povesti oxuculara təqdim edilmişdir. Ümumiyyətlə, “Naxçıvanım – göz nurum” almanaxında verilmiş şeir və poemalarda, povestdə qədim Naxçıvanın ulu keçmişi, əsrlərin yadigarı olan tarixi abidələri, bu torpağın əsrarəngiz təbiəti, eləcə də gündən-günə gözəlləşən, abadlaşan şəhərlərin, qəsəbələrin, kəndlərin misilsiz dərəcədə inkişafı poetik dildə tərənnüm olunur. Əziz oxucular ümid edirik ki, bu kitab sizin stolüstü kitabınız olacaq. Kitabı oxumağa dəyər.

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə bağlı keçirilən silsilə tədbirlərdən biri də inşa müsabiqəsidir. “Hər daşın altında bir tarix yatır” adlı inşa müsabiqəsinin elanı kitabxananın girişində asılır. Həmçinin elan kitabxananın saytında da öz əksini tapır. İnşa müsabiqəsini elan etməmişdən qabaq kitabxanaçı Naxçıvan Muxtar Respublikasının yaranması, dünəni və bu gününü, inkişafı, təhsili, tarixi abidələri, təbiəti, milli-mənəvi dəyərləri, görkəmli şəxsiyyətləri haqqında məlumat verir.

Müsabiqə başa çatdıqdan sonra kitabxananın münsiflər heyəti tərəfindən qaliblər müəyyən olunur və mükafatlandırılır.

Kitabxanamızda keçirilən tədbirlərdən biri də nağıl saatıdır. Naxçıvan Muxtar Respublikasının yubileyi ilə bağlı keçirilən nağıl saatı kitabxananın kiçik və orta yaş qrup oxucuları arasında nəzərdə tutulur. Tədbirə qatılan oxucular üçün Naxçıvan haqqında çəkilmiş video slayd nümayiş olunduqdan sonra “Beşik” nəşriyyatında çap olunmuş “Mən və Mənim dünyam” adlı jurnal silsiləsindən yazar Dilsuzun “Naxçıvan” adlı nağılı uşaqlar üçün səsləndirilir. Gəlin birlikdə nağıla qulaq asaq.

Mən deyim yüz min il, sən denən beş yüz min il, mən deyim milyon il, sən denən on milyon il bundan əvvəl külli-aləmi lərzəyə gətirən bir tufan qopur. Dağ-daş yerindən oynayır, dənizlər bir-birinə qovuşur, hər tərəfi sel-su basır.

Yekəpər fillər, uzunboyun zürafələr, caydaq dəvələr, iribuynuzlu marallar, xallı pələnglər, alagöz ceyranlar, yastıdaban ayılar, bədöy atlar, şələquyruq tülkülər bilmirlər ki, canlarını qurtarmaq üçün hara qaçsınlar. Qonmağa bir qaya, ağac tapmayan koğadimdik qartallar, xınalı kəkliklər, çil-çil bildirçinlər yurd-yuvalarını tərk edib, havadaca fırlana-fırlana qalırlar.

Qorxudan özlərini itirmiş insanlar Nuh peyğəmbərin yanına qaçırlar:

-Ya peyğəmbər, bu nə işdi başımıza gəlir? Əkin-biçinimiz məhv olur? Mal-qaramız qırılır.Bizə bir yol göstər.

Nuh peyğəmbər deyir:

-Vaxt itirmədən elə bir şey düzəltməliyik ki. Sudan yüngül olsun.

İnsanlar bir-birilərinin üzünə baxırlar:

-Sudan yüngül nə ola bilər?

Nuh peyğəmbər deyir:

-Gəmi.

İnsanlar yenə bir-birlərinin üzünə baxırlar:

-Gəmi nədi?

Nuh peyğəmbər deyir:

-İri təknə.

-Axı, biz onu necə düzəldə bilərik?

Nuh peyğəmbər deyir:

-Meşədə nə qədər iri gövdəli quru ağac varsa, tığın, gətirin bura.

İnsanlar yollanırlar meşəyə. Rastlarına nə qədər iri gövdəli quru ağac çıxırsa, yığıb gətirirlər.

Nuh peyğəmbər deyir:

-İndi bunların içini oyun.

İnsanlar ağacların içini oyurlar.
Nuh peyğəmbər deyir:
-İndi bunları bir-birinə bənd edin.
İnsanlar içi oyulmuş ağacları bir-birinə bənd edirlər. Nəhəng bir gəmi alınır.
Nuh peyğəmbər deyir:
-Hə, indi biz gəmini hərəkətə gətirmək üçün gərək bir neçə avar da düzəldək.
Elə ki, avarlar da hazır olur, Nuh peyğəmbər deyir:
-Hər heyvandan ikisini, biri erkək, biri dişi-hər bitkinin toxumundan da bir ovuc yığın gəmiyə.
Nuh peyğəmbər necə deyirsə, insanalr da elə eləyirlər. Filləri, zürafələri, dəvələri, maralları, pələngləri, ceyranları, ayıları, atları, tülküləri, qartalları, kəklikləri, bildirçinləri, ta dünyada nə qədər quş, heyvan varsa, hamısından iki-iki biri erkək, biri dişi-yığırlar gəminin bir tərəfinə. Sonra hər bitkinin toxumundan da bir ovuc götürürlər. Ta nolacaq, su qalxdıqca, gəmi də başlayır öz-özünə qalxmağa. Adamlar bir də baxıb görürlər ki, dörd tərəfləri sudu.
Nuh peyğəmbər deyir:
-İndi bir yerdə durmaq olmaz. Avarları çəkin, gəmi hərəkətə gəlsin. Bəlkə üzə-üzə quruya çıxdıq.
Elə də edirlər. Düz qırx gün, qırx gecənin tamamında gəmi nəyəsə ilişib dayanır.
Nuh peyğəmbər deyir:
-şükür, axır ki, quruya çıxdıq.
Ekə bu vaxt su da başlayır yavaş-yavaş çəkilməyə. Baxıb görürlər bura elə bir yerdi ki, dağ desən, dağı var, düzənlik desən, düzənliyi.
Nuh peyğəmbər deyir:
-İndi gəmini boşaldın. Quşları, heyvanları açıb buraxın. Toxumları səpin.

İncəfara yaz  ağzı idi. Bir-iki günün içində hər tərəf yamyaşıl oldu. Gül-gülə qarışdı, çiçək-çiçəyə. Taxıl, darı, çəltik zəmiləri dizdən yuxarı qalxdı. Heyvanlar oynaqladılar, quşlar civildəşdilər. Belə rəvayət eləyirlər ki, insanlar gəminin ilk dəfə çıxdığı həmin yeri "Nuxçıxan" adlandırdılar. Sonradan da bu söz dildən-dilə, ağızdan-ağıza düşə-düşə olur "Naxçıvan".
Hə, bir də, belə rəvayət eləyirlər ki, Nuhun gəmisi quruya çıxandan sonra daşa dönür, adı da olur "Gəmiqaya"...
Nağıl bitdikdən sonra kitabxanaçı uşaqlara nağıl haqqında suallar ünvanlayır.

Yubiley tədbiri ilə bağlı kitabxanamızda keçirilən tədbirlərdən biri də şeir müsabiqəsidir. Şeir müsabiqəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Belə ki, bu tədbirin keçirilməsində məqsəd oxucularda şeirə maraq oyatmaq, şeiri duymaq, onu necə intonasiya ilə demək bacarığı aşılamaqdır. Elə bu baxımdan da kitabxanada belə tədbirlərin vaxtaşırı keçirilməsi məqsədəuyğundur. Bu gün yaranmasının 100 illiyini qeyd etdiyimiz Naxçıvan Muxtar Respublikası haqqında çox şeirlər, mahnılar bəstələnib. İllərdir bu dogma torpağın şəninə bəstəkarlar gözəl mahnılar bəstələyir, şair və yazıçılar şeir, roman, povest, hekayələr yazırlar. Azərbaycanın məşhur xanəndələri bu musiqiləri sevə-sevə oxuyur, onaları məşhur edirlər. Teatrlarımızda bu qədim və müasir diyarın, tarixi abidələrinin şəninə bir çox tamaşalar hazırlanır. "Gündən-günə gözəlləşən Naxçıvan adlı şeir müsabiqəsinə start verilir. Gəlin birlikdə kitabxanmızda keçirilən şeir müsabiqəsinin şərtlərinə baxaq. Şeir müsabiqəsi əsasən böyük və orta yaş qrup oxucular arasında keçirilir. Müsabiqənin şərtlərinə görə yaxşı şeir demək bacarığı olan, şeiri gözəl, səlist, intonasiya ilə deyə bilən oxucular münsiflər tərəfindən seçilir və I, II, III yerlər üzrə müəyyənləşdirilib, təltif olunur. Müsabiqəyə ədəbiyyat müəllimləri, şair və yazıçılar, kitabxananın fəal oxucuları dəvət olunur. Müsabiqədə Naxçıvan haqqında yazılan bir neçə şeirdən

istifadə oluna bilər. Xalq şairi Məmməd Arazın “Mənim Naxçıvanım”, İslam Səfərlinin “Naxçıvan”, Əliyar Yusiflinin “Muxtar respublikam”, Elmira Qasımovanın “Mənim Naxçıvanım” və s. Oxucular səhnəyə daxil olur.

**Mənim Naxçıvanım**

Sinəmdə o yerin dağ havasıdır,
Qaynar bulaqları qaynar qanımda.
Mənim ürəyimin bir parçasıdır,
Doğma Şahbuzum da, Naxçıvanım da.

Bir bağban əli var təbiətində-
Dağda çiçəyi bol, bağda barı bol.
O, yaxın dostudur təbiətin də
Yayda günəşi bol, qışda qarı bol.

Mən burdan baxıram bütün aləmə,
Bu yerin qışı da yazımdır mənim.
Axan çaylarına lal sudur demə,
Onlar min nəğməli sazımdır mənim.

Seyr elə Arazı bir yaz səhəri,
Bir tarix dil açır onun səsində.
Bu yerin min dərdi, min də kədəri
Yazılmış Atabəy məqbərəsində.

Yaxşı bax, hər qara  qayanın, dağın,
Dibi Zərdüştlərin ocaq yeridir.
O gündən üstündə ana torpağın
Qalan min yağının ləpirləridir.

Biz nöqtə qoymuşuq acıya, dərdə
Ömrü ulduzlardan almışıq indi.

Babamız qəm əkib, qəm biçən yerdə
Çiçəkli bağ-bağat salmışıq indi.

Hanı Qəmküsarın qəm şəlaləsi,
Qəlbində apardı neçə dərdi o.
Çatsa qulağına bu günün səsi,
Ayılıb adını dəyişərdi o.

Şəhərim çırağban, kəndim çırağban
Kəhkəşan sinəmdən nur alsın deyir,
Onun gecəsinin işıqlarından
O tayın gündüzü işıq istəyir.

**Məmməd Araz**

**Muxtar respublikam**

Baxma xəritədə bu qədim diyar
Kiçik bir nöqtəylə qeyd edilibdir.
Bu yurdun qolunda aslan gücü var,
Burdan cahangirlər peşman gedibdir.

Durur minarələr, vüqarla durur,
Köksündə gülləylə vursa da yağı.
Böyük Əcəmidən öyrənib onlar,
Düşmən qabağında mətin durmağı.

Bilinmir bu yerdə kəkliyin sanı
Düşünmə, hənadır dırnaqlarında,
Onlar el uğrunda tökülən qanı
Yadigar saxlayır ayaqlarında.

İtirib döyüşdə qardaş-qardaşı,
Muzeydə saxlanan qanlı beşikdir.
Burdakı qayanın, burdakı daşın

Sinəsi güllədən deşik-deşikdir.

Qəm yerə quylanıb şiş qayasında,
O gündən bu günə vüqar qalıbdır.
Odlar diyarının bu parçasında
Şadlıq qranitdən qoparılıbdır.

Bu yerlər qıy vuran qartal yeridir,
Dostlar qonaq gəlsin qoy dəstə-dəstə.
Bu qədim Naxçıvan gül çələngidir,
Məğrur bir vətənin qolları üstə.

**Əliyar Yusifli**

**Mənim Naxçıvanım**

Mənim Naxçıvanım, ana vətənim,
Daşın, torpağın da əzizdir mənə.
Övlad anasına söz qoşsa əgər,
Yorulmaz vəsfindən yüz il də yenə.

Muxtar respublikam, vüqarım mənim,
Sal duzun, "Badamlı"n sonsuz sərvətim.
İgid, alnı açıq övladlarınla
Yayılıb dünyaya sənin şöhrətin.

Burada bulaq var ki, dərdlər əlacı,
Burada yaylaqlar loğmandır, loğman.
Sənin dağlarında gül iyləyən kəs
O xoş rahiyəni unutmaz bir an.

Burada qartallar qıy vursa əgər,
Şimşəklər oynayar, qayalar uçar.

Koroğlu dövründən qalan dağları,
Günəş ilkin öpər, şəfəqlər saçar.

Nizami dövrü ilə gəlib üz-üzə,
Qalalar önündə qala olarsan.
Belə od ürəkli ana torpağa,
Sən də od ürəkli bala olarsan.

Əlincə qalası əzəmətiylə,
Ölməz Nəiminin vüqarıdır, bax.
Deyirəm zamanın hökmünə əhsən,
Min illik tarixdir bir qarış torpaq.

**Elmira Qasımova**

**Naxçıvan**

Şərqin qapısında ucalan diyar,
Araz tək gümüşü bir kəmərin var.
Sevimli Naxçıvan, ey gözəl Vətən,
Bu bayram günündə əlvan geyin sən.

Qoynunda çıxdıqca hər gün seyrə biz,
Fərəhdən bir dağa dönür qəlbimiz.
Könülü şən ol hər zaman,
Doğma Naxçıvan.

Gör nə çalır könül simi,
Şeirə verdim mən eşqimi.
Mirzə Cəlil, Bəhruz kimi
Sənətkarlı Naxçıvanım.

Şöhrətim, şanım,
Doğma məkanım.
Sən nə gözəlsən,

Ey Naxçıvanım,
Azərbaycanım.

Mən neylərəm sənsiz görən?
Doymaz səndə ömür sürən,
Xalqımıza könül verən,
Xoş baharlı Naxçıvanım.

İslam Səfərli

F. Köçərli adına Respublika Uşaq Kitabxanasında yubileylə bağlı keçirilən tədbirlərdən biri də **"Səndə tarixlərin çox nişanı var..."** adlı ədəbi-bədii gecədir.

Ədəbi-bədii gecə iki hissədən ibarət olur. Tədbirin birinci hissəsi çıxış və məruzələrə başlayıb, ikinci hissəsi şeir, musiqi, tamaşa və səhnəciklərlə bitir. Kitabxanaçı tədbirə ziyalılarla yanaşı ali məktəb tələbələrini, lisey, gimnaziya, orta məktəb şagirdlərini dəvət edir. Tədbirdə iştirak edən şair və yazıçılar, müğənnilər Naxçıvan haqqında yazılmış şeirləri, poemalardan bir hissəni, müğənnilər məşhur musiqləri səsləndirirlər. Kitabxanaçı tədbirin məzmunlu, yaddaqalan keçməsi üçün nağıl və əfsanələrdən tamaşaların da göstərilməsini təşkil edir.

**I Aparıcı:**

**Mən səni vəsf edim öz anam kimi,**
**Sarılım boynuna mehriban kimi,**
**Eşqin, məhəbbətin bir ümman kimi,**
**Axır könüllərə sarı, Naxçıvan!**
**Ellərin sevgili yarı, Naxçıvan!**

**Hüseyn Əzim**

Əziz tədbir iştirakçıları, bildiyiniz kimi, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan, salnaməsini zənginləşdirən tarixi hadisələri hər daşında, qayasında yaşadan, Qədim İpək Yolunun mərkəzində yerləşən Naxçıvan Muxtar Respublikasının

yaradılmasının 100 illiyi respublika səviyyəsində yüksək əhval-ruhiyyə ilə qeyd olunur.

Nəzərinizə çatdırmaq istəyirik ki, 1924-cü il fevral ayında yaradılan Naxçıvan Muxtar Respublikası Azərbaycanın Şərqə açılan qapısı olmaqla zəngin dövlətçilik tarixinə malikdir. Naxçıvanın inkişafında böyük xidmətləri olan, böyüyüb, boya - başa çatdığı doğma yurdunun tərəqqisi naminə fədakarlıq göstərən ulu öndər Heydər Əliyevin " Azərbaycanın qədim və zəngin tarixə, mədəniyyətə və çox əsrlik dövlətçilik ənənələrinə malik Naxçıvan diyarı mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq məktəblərindən biri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir. Naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda quruculuq posesləri gedir" sözləri muxtar respublikanın Azərbaycan üçün əhəmiyyətini əks etdirir.

Naxçıvan beş min ildən çox şəhərsalma mədəniyyətinə malikdir. Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası tarixən çox mürəkkəb və keşməkeşli inkişaf yolu keçib. Tarix boyu Naxçıvan müxtəlif imperiyaların maraq dairəsində olsa da, heç bir işğalçı ordu naxçıvanlıların iradəsini qıra bilməyib.

Çoxəsrlik dövlətçilik ənənələri olan Naxçıvan xalqımızın zəngin mədəni irsini layiqincə yaşadıb. Bu torpaq Azərbaycana, dünyaya xalqımızın böyük və əvəzedilməz, görkəmli şəxsiyyəti olan Heydər Əliyevi bəxş edib. Naxçıvan həm də Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır.

**II Aparıcı:** Əsrarəngiz təbiəti, yerləşdiyi əlverişli coğrafi əhəmiyyəti ilə diqqət çəkən Naxçıvan tarixən gərgin siyasi mübarizə meydanı olmuş, dəfələrlə yadellilər tərəfindən işğala

məruz qalmışdır. Amma düşmənə arxa çevirməyən yerli əhalinin qəhrəmanlığı ilə bu torpağa göz dikənlər heç vaxt istəklərinə nail ola bilməmişlər. Qalaları xatırladan igidlərimiz düşmən qarşısında canlı sipər olaraq müqəddəs torpaqlarını qorumuşlar.

Nuh yurdu kimi tanınan, orta əsrlərdə Şərqin iri elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzlərindən biri kimi şöhrət qazanan bu diyar dünya sivilizasiyasına böyük töhfələr vermişdir. Qədim əlyazmalarında Naxçıvan toponiminin tərkibi, dil mənsubiyyəti, coğrafi mənşəyi haqqında saxlanılan qeydlər, səyyahların əsərlərində Naxçıvanın adının çəkilməsi bu diyarın minilliklərə şahidlik etdiyini təsdiqləyir. Coğrafi dəlillər, tarixi araşdırmalar sübut edir ki, "Kitabi-Dədə-Qorqud" dastanının qəhrəmanlarının əsas yaşayış məskənlərindən biri də Naxçıvan diyarı olmuşdur. Övliya Çələbinin " Səyahətnamə" əsərində yazılan " Qələyi- Nəxşıvan, Nəqşi-cahan həqiqətən dünyanın ən gözəl şəhəridir" sözləri bu diyarın qədimliyini təsdiqləyən ən qiymətli mənbədir. Tarixinin bütün dövrlərində Şərqlə Qərb arasında körpü kimi səyyahların ən çox keçdikləri ərazi olan, bu missiyasını müasir dövrümüzdə də davam etdirən Naxçıvanı şöhrətləndirən tarixi abidələri, görməli yerləri çoxdur. Qədim insan məskəni olan, təsviri sənətin ilk nümunələri sayılan Gəmiqaya rəsmləri, "Əshabül-Kəhf" ziyarətgahı, dünya memarlıq sənətinə bəxş etdiyi inciləri ilə özü də əbədi yaşam haqqı qazanan Əcəmi Əbubəkr oğlu Naxçıvaninin şah əsəri olan Möminə xatun türbəsi kimi digər abidələr də muxtar respublikanın mənəvi pasportu olmaqla xalqımızın ta qədimdən elmə, sənətə bağlılığını göstərir. Mühüm elm mərkəzlərindən olan Naxçıvan Şərqdə şöhrət tapmış görkəmli alimləri, mütəfəkkirləri, filosofları ilə tanınmış, Nəsrəddin Tusi, Fəzlullah Nəimi kimi tarixi şəxsiyyətlər yetirmişdir. Nadir inciləri ilə tanınan Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Hüseyn Cavid, İslam Səfərli, Məmməd Araz kimi

korifeyləri, Bəhruz Kəngərli kimi sənətkarları, hərbi sahədə tanınmış generalları yetişdirən ulu məskən ziyalı qadınların yetişdirilməsində də ilk sözünü deyən olub. Qədimliklə müasirliyin vəhdətində inkişaf edən Naxçıvan ziyalıları , elm adamları ilə tanınıb. Dünya siyasətçiləri arasında adı birincilər sırasında çəkilən ulu öndər Heydər Əliyev bu torpağın yetirməsi kimi Naxçıvanın adını daha da şöhrətləndirdi.

Oxucular səhnəyə daxil olur. Sözləri  şair Hüseyn Əzimə, musiqisi Məmməd Cavadova məxsus " Barı Naxçıvan!"adlı mahnısını oxuyurlar.

**Qoynuna gül üzlü şux nigar gəlir,**
**Müjdə ver bülbülə, ilk bahar gəlir,**
**Qızlar bulağına nazlı yar gəlir.**
**Ey könül mülkünün varı Naxçıvan!**
**Ellərin sevgili yarı Naxçıvan!**

**Səndə tarixlərin çox nişanı var,**
**Hər daşın qəlbində ox nişanı var,**
**İndi nə xanı var, nə sultanı var.**
**Silib gül üzündən xarı Naxçıvan!**
**Ellərin sevgili yarı Naxçıvan!**

**Bilirəm düz əhdin, düz ilqarın var,**
**Yar yolu gözləyən min nigarın var,**
**Vüsala çatdıran şən baharın var.**
**Dərər yar döşündən barı, Naxçıvan!**
**Ellərin sevgili yarı Naxçıvan!**

**Bağçanın bəzəyi güldür əzəldən,**
**Şair varı şirin dildir əzəldən,**
**Qoy olum mən sənə dastan düzəldən.**

**Budur sənətkarın varı, Naxçıvan!**
**Ellərin sevgili yarı Naxçıvan!**

**I Aparıcı:** «Naxçıvan, ulu insan məskəni Azərbaycan torpağıdır. Bu tarix çox zəngin hadisələrlə doludur. Bunların hamısı Azərbaycan üçün Naxçıvanın nə qədər qiymətli olduğunu həmişə göstərib, göstərir və gələcəkdə də göstərəcəkdir... Azərbaycan Respublikasının tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının coğrafi vəziyyəti bu diyarda ölkəmizin torpaqlarının, sərhədlərinin qorunması üçün xüsusi əhəmiyyət kəsb edir.» Naxçıvanlılar Ümummilli Liderin bu tövsiyəsinə həmişə sadiqlik göstəriblər. Azərbaycanın müstəqilliyi yolunda yenə də Naxçıvanın dayandığından məmnunluğunu bildirən görkəmli dövlət xadiminin müəyyənləşdirdiyi quruculuq siyasətinə böyük sədaqət və ehtiramı bu gün hər bir sahədə görmək olar.
…Batabatı, İlanlı dağı, Salvartısı, şəfalı bulaqları, müalicəvi suları, zəngin təbiəti, ətirli, dadlı meyvələri ilə hər kəsi məftun edən, turistərin də maraq göstərdiyi, 100 yaşı olsa da gənclik siması ilə hamını valeh edən Naxçıvan həqiqətən gəlməli, görməli, sevilməli məkandır. Zəngəzur dəhlizinin bərpası ilə bir çox dövlətlərin müasir İpək Yolu olacaq ulu məskənin gələcəyi daha möhtəşəm olacaq.

*Bir qrup məktəbli uşaqlar səhnəyə daxil olur. Onlar öz aralarında fikir mülahizələri aparırlar.*

Dostlar, deyin görək bu il yay tətilini harada keçirmək istəyirsiz? Uşaqlardan biri Gəncə, biri Zaqatala, o biri isə Quba deyir. Söhbətə səbirlə qulaq asan Vasif söyləyir. Dostlar, mən isə yay tətilini anadan olduğum doğma diyarım Naxçıvanda keçirmək istəyirəm. O, dostlarına müraciət edərək deyir:
– Uşaqlar, gəlin yurdumuzun gəzməli-görməli yerlərinə istirahətə gedək. Mənim sizə bir təklifim var. Məncə yay

tətilində Naxçıvana getsəz daha yaxşı olar. Mən keçən il ailəmlə birlikdə Naxçıvanda istirahət etmişəm. Heç bilirsiz Naxçıvanın necə gözəl gəzməli-görməli yerləri var. Götürək elə Batabatı, Xal-xal meşəsini, Ordubadı. O qədər səfalı havası, buz kimi şirin suyu, bulaqları, çeşmələri var ki, gəzdikcə, seyr etdikcə doymaq olmur. Hələ mən əzəmətli dağlarını, qədim abidələrini, muzeylərini, ziyarətgahlarını demirəm. Götürək elə, "Ashabi-Kəhf" ziyarətgahını, "Yusif-Küseyr, "Möminə Xatun məqbərəsini", görkəmli şairimiz "Hüseyn Cavid məqbərəsini" və s. yerləri. Hələ məşhur "Qızlar bulağını" demirəm. Yadımdadır babam deyərdi ki, hansı qız "Qızlar bulağından" su içsə o qız daha da gözəlləşər, saflaşar. Tək bircə dəfə Naxçıvanı gəzmək bəhs edər ki, qəlbin ilhamla dolsun, könlündən poetik duyğular keçsin. Bir sözlə, əziz dostlar, əbəs yerə deməyiblər ki, ey könül mülkünün barı Naxçıvan. Bəh-bəh, bir sözlə, bu diyarın gözəlliyinə söz ola bilməz. Uşaqlar gəlin etiraf edək ki, Anamız Azərbaycanımızın hər bir qarışı, hər bir yeri gözəldir.

*Aygün Bəylərin ifasında "Qızlar bulağı" romansı səslənir*. Uşaqlar səhnəyə daxil olur. Məhərrəm Ağalarovun "Naxçıvanım" şeirini söyləyir

Bil, həyatın mənzərədir,
Göz bəbəyim Naxçıvanım.
Siyasətçi alimlərin
Vətənisən Naxçıvanım.

***

Abidələr diyarısan,
Ulu türkün baş tacısan,
Azərbaycan torpağısan
Ulu yurdum Naxçıvanım.

***

İgidlərin mərddir sənin,
Atabəylər Eldənizin,

Sıra dağın, Əlincənin
Vətənisən Naxçıvanım.
***
Ordubadda soyuq dağın,
Badamlı dərman suların,
İgid olub hər övladın
İgid elim Naxçıvanım.

**II aparıcı:** Dostlar, gəlin bir viktorina keçirək. Kim bu viktorinada fəal iştirak etsə qalib olacaq və kitabxanamızın müdriyyəti tərəfindən mükafatlandırılacaqdır.

☺Naxçıvanın mineral suları hansılardır?

"Badamlı", "Sirab", "Vayxır" minaral suları bütün dünyada məşhurdur.

☺ Naxçıvanın hansı tarixi abidələrinin adlarını çəkə bilərsiniz?

"Möminə Xatun türbəsi", "Yusif Küseyr" türbəsi, "Xan sarayı" və s.

☺ Naxçıvanda anadan olan hansı tarixi şəxsiyyətlərin adlarını çəkə bilərsiniz?

Heydər Əliyev, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Araz, M.S.Ordubadi, Y. Məmmədəliyev, Cəmşid Naxçıvanski, Əliqulu Qəmküsar və s.

☺ Gəmiqaya abidəsi harda yerləşir?

Naxçıvanda.

☺ Şərur – yerlilərin dili ilə desək: "Şəlisi" ilə məhşurdur. Bəs "Şəli" nədir?

Şərur şaftalısı.

*Uşaqlar "Şərur" yallısını oynayırlar.*

**I aparıcı:** Əsrlərcə qəlbindən min yara alan, gözləri ilə od götürən Naxçıvan eli, Naxçıvan camaatı bu gün daha böyük əzm və inadkarlıqla ana yurdunun, doğma torpağının keşiyini çəkir, vətənini yadellilərdən, namərdlərdən qoruyur. "Vətən o kəsindir ki, uğrunda qurban gedir, torpaq o kəsindir ki, öz qanı ilə

torpağını müqəddəsləşdirir" zəfəri ilə düşmənə qənim kəsilir, qan içənlərə qan uddurur.

*Oxucular səhnəyə daxil olur, Abdulla Qurbaninin "Naxçıvandır, Nəqşi-Cahandır, Azərbaycandır" adlı epiloqunu söyləyirlər.*

Dağları qartallı, çayları coşqun,
Bağları meyvəli, Düzü laləli,
Xınalı kəklikli, sarı bülbüllü,
Nərgizli, süsənli, şeh piyaləli
Hansı məkandır?
Naxçıvandır,
Nəqşi-cahandır
Azərbaycandır!

***

Əsrlər şahidi qalalar, bürclər,
Hər daşı, qayası tarixdən nişan,
Vətənə, ulusa, torpağa bağlı,
Öz ana dilində yazıb-danışan
Hansı məkandır?
Naxçıvandır,
Nəqşi-cahandır
Azərbaycandır!

***

Gümüşlü mədəni, qara mərməri,
Tükənməz sərvəti, ömrü duz dağı.
Əyilməz, yenilməz möhtəşəm diyar,
Düşmənə, yağıya sipər, göz dağı
Hansı məkandır?
Naxçıvandır
Nəqşi-cahandır
Azərbaycandır!

***

Batabat meşəli, Qızlar bulaqlı,
Xalçalı, bağçalı, Novruz xonçalı,
Cəlilli, Cavidli, Məmməd Səidli,
Əcəmi naxışlı, Bəhruz fırçalı
Hansı məkandır?
Naxçıvandır
Nəqşi- cahandır
Azərbaycandır!..

“O Naxçıvandı, nəqşi cahandı-Azərbaycandı”. Hər dəfə bu təkrarsız mahnını eşidəndə ürəyim dağa dönür, xəyalım zirvələrdə qərar tutur qürur bağlayıram, fəxr edirəm, öyünürəm, sevinirəm. Və öz-özümə “nə şirin avazdı, nə sehirli sazdı. Zilə çək zillən, telə çək tellən. Ovsunla qəlbimizi, odla ürəyimizi” deyirəm. Naxçıvan anamız, Odlar yurdumuzun odlu parçasıdı. Bütövlüyümüzün təsdiqi, ayrılmazlığımızın təntənəsidi. Gözümüzdü göz bəbəyimizdi, öz taleyimiz, öz ürəyimizdi. Naxçıvan torpağımızın, xalqımızın mərd qayası, keçilməz səddi, alınmaz qalası, basılmaz elidi-obasıdı.

İki oxucu səhnəyə daxil olur.

Əshabi-Kəhf dağı haqqında əfsanəni səhnələşdirib söyləyirlər. Əshabi-Kəhf dağı İlandağı ilə Nəhacir dağının ortasında yerləşir, çox qədim zamanlardan bəri bu dağ haqqında qəribə hekayətlər, əhvalatlar yaranmışdır. Çox qədimlərdə Naxçıvan şəhərində Daqyanus adlı bir padşah var idi. Bir dəfə bu padşah öz xalqına elan etdi ki, o, yalnız padşah deyil, həm də Allahdır və xalqına əmr etdi ki, ona Allah kimi ehtiram göstərsinlər. Xalqın ona tabe olmaqdan və onu Allah kimi tanımaqdan başqa bir çarəsi qalmamışdı. Lakin aralarında Təmliha adlı bir nəfərin də olduğu əsilzadə mənşəli altı nəfər onu Allah kimi tanımaq istəməyərək və şəhərdə qalmaqdan qorxaraq öz aralarında belə qərara gəldilər ki, başqa şahlığa qaçsınlar.

Gecə Təmliha və onun beş yoldaşı gizlicə şəhərdən çıxdılar və ertəsi günün axşamı bir təpənin yanına gəlib çatdılar, burada onlar dincəlmək və aclıqlarını yatırmaq üçün atlarından yerə endilər. Onlardan bir qədər aralıda qoyun sürüsünü otaran bir çoban var idi. Qaçqınların yemək-içmək azuqəsi olmadığından onlar çobandan xahiş etdilər ki, yemək üçün onlara nə isə versin. Sənin yeməyə çörəyin varmı? – onlar çobandan xəbər aldılar. Çoban cavab verdi: Vardır.

Çoban yeməyə nəyi var idisə, onlara verdi. Padşahdan qaçmış altı nəfərlə görüşəcəyi haqda mələk tərəfindən öncədən xəbərdar edilmiş çoban xəbər aldı: Məgər siz Daqyanusdan qaçmış adamlardan deyilsinizmi?

– Sən niyə belə düşünürsən? Sən bizi necə tanıdın? tanınmaqdan təəcüblənmiş və qorxuya düşmüş qaçqınlar ondan xəbər aldılar. Lakin çoban onların narahatçılığını sezib söylədi ki, onların burada olacaqlarını öncədən bilirdi və onlara qoşulmaq üçün burada gözləyirdi, çünki o da onların etiqadlarını bölüşdürür və Daqyanusu Allah olaraq qəbul etmir. Qaçqınlar çobanı da öz sıralarına aldılar. Çoban qoyun sürüsünü sahibinə təhvil verdi. O, yeni yoldaşlarının yanına geri dönəndə ona yan alan bir qırmızı itə rast gəldi və it də onunla qaçqınların yanına gəldi. Qaçqınlar iti gördükdə qorxu içində qışqırışdılar: O haradan bura gəldi? Onun bizim aramızda olmağı təhlükəlidir, o hürüşü ilə bizi ələ verər, bizi məhv edər. Sonra onlar onu qovmağa başladılar, lakin bütün ciddi-cəhdləri boşuna getdi, nə qədər çalışdılarsa, o getmirdi. Nəhayət, qırmızı it adam səsi ilə danışdı: Siz niyə məni qovursunuz? Mən bilirəm siz kimsiniz, mən bilirəm ki, siz təhlükədəsiniz və buna görə də kimsə sizi qorumalıdır. Mən bura sizə sədaqətlə xidmət etmək üçün, sizi qorumaq üçün gəlmişəm, mən getməyəcəyəm, mən sizin keşikçiniz olacağam, sizin keşiyinizi çəkəcəyəm. Qırmızı itin sözləri hamının xoşuna gəldi və qaçqınlar sevinə-sevinə ovçu iti

öz yanlarında saxladılar. Digər bir rəvayətə görə, it kimlər tərəfindənsə öldürülmüşdü, onun basdırıldığı yerə çoban öz çomağını sancmış və həmin anda çomaqdan bir ağac böyüyüb qalxmışdı. Deyilənə görə, o ağac bu vaxtadək mövcuddur. Bu yerdə uzun vaxt qalmaq təhlükəli idi. Buna görə də naxçıvanlı qaçqınların altısı da çoban və itlə (birinci rəvayətə uyğun olaraq) burada qalmayıb öz yollarına davam etdilər. Yolda onlar dağ gördülər, ona yaxınlaşdılar və dağda bir mağaraya rast gəldilər, lap yaxınlığında bulaq var idi. Mağaraya giriş ağaclıq və əsasən də meyvə ağaclarından ibarət olan bağ ilə örtülmüşdü. Yer o qədər gözəl idi ki, yolçuların böyüyü Təmliha dedi: Bundan gözəl sığınacaq tapa bilmərik. Onların altısı da dincəlmək üçün mağaraya girdilər. Bu vaxt Allahın göndərdiyi yuxu mələyi gəldi və özünün enli qanadlarını açdı, qanadları ilə onların üstünü örtdü və onları yatırtdı. Onlar mağarada dərin ölüm yuxusu ilə yatdılar. Bu arada Daqyanus padşah öyrəndi ki, Təmlihanın başçılığı altında onun altı təbəəsi ona Allah olaraq ehtiram etmək istəməyərək şəhərdən qaçıblar və indi mağarada gizlənirlər. Özünü Allah adlandıran öz hakimiyyətinə qarşı öz təəbələrindən açıq müqavimətlə qarşılaşmayan padşah qorxuya düşdü. O, ötkəmləri cəzalandırmaq üçün döyüşçülərini götürüb mağaraya tərəf yola düşdü. Gəlib mağara çatdı və nə gördü? Qaçqınlar mağarada dərin yuxu içində yatırdılar. Mağaranın girişində alov saçan qılınclarla silahlanmış döyüçşü mələklərdən dəstə dayanıb, qılıncları yellədərək adi insanlardan heç kimi mağaraya yaxınlaşmağa imkan vermirdilər. Padşah həqiqi Allahın bu qorxunc əzəməti qarşısında özünü itirdi, tabe oldu, boyun əydi və fikirləşdi “Mən haradan Allaham, hamı kimi mən də insanam, mağarada yatan, Allahın özü və mələkləri tərəfindən qorunan bu adamlar adi adamı Allah olaraq tanımaq istəməməklə ədalətli hərəkət etmişlər. Padşah heyrət içində olan və qorxudan donub qalmış döyüşçülərə üzünü tutub dedi: Bunlar müqəddəs insanlardırlar.

Sonra o, mağaraya yaxınlaşdı, daşlarla oranın girişini bağladı və dedi: Allah uzun əsrlər boyunca sizi qorusun!

Padşah gördüyündən heyrətlənmiş halda çıxıb getdi və həmin saat özünə Allah kimi ehtiram göstərilməsi haqqında olan əmrini ləğv etdi. Bu işin üstündən üç yüz doqquz il keçdi. Bu müddət ərzində mələk ildə bir dəfə mağaraya uçub gəlirdi. Üç yüz onuncu il gəlib çatdı. Tutqun bir gün idi. Göy üzü qara buludlarla tutulmuşdu. Günəş gizlənmişdi. Birdən dəhşətli qorxunc ildırım guruldadı, çox güclü qasırğa əsdi. Qasırğa mağaraya girdi, Təmliha və onun yol yoldaşlarını üç əsrlik dərin yuxudan oyatdı. Onlar mağaradan çıxdılar və nə gördülər? Nə bulaq vardı, nə də mağaranın girəcəyindəki meşə və ağaclıq. Bu nə deməkdir? Dünən onlar burada yıxılıb yatmışlar, vur-tut bir gecə keçmiş, amma birdən belə dəyişiklik baş vermişdir! – onlar düşündülər. Onlar belə düşünüb təəccübləndilər, üç əsrdən çox yatdıqlarını belə güman etmədilər. Təmliha acdıqlarını hiss etdikdə yoldaşlarına tez geri dönəcəyini deyib, şəhərə çörək almağa yola düşdü. O, şəhərə gəlib çatdı və bazarda öyrəndi ki, Daqyanus ölüb və indi burada müsəlman və xaçpərəst padşah vardır. Şəhərin qapısının üstündə “Allahdan başqa ilah yoxdur!” yazılmış bayraq asılmışdı. Bazarda, meydançalarda, küçələrdə, ümumiyyətlə, hər addımda Təmlihanın heyrət və təəccübü artırdı, hər addım böyük dəyişiklik görürdü.

“Bu nə deməkdir? ”İki gün bundan əvvəl mən burada idim, onda bir şey görürdüm, indi isə başqa bir şey görürəm. Hətta heç bir tanışla belə rastlaşmamışam! Xalq da elə bil başqadır. Mən bütün bunları yuxudamı görürəm, mən hardayam?” – Təmliha düşünürdü.

Təmliha özünə çoxlu suallar verir və onların heç birinə cavab tapa bilmirdi. Bu şəkk-şübhələr içində istər-istəməz o, öz

vəziyyəti ilə razılaşdı və nəhayət, ac yoldaşlarının onun yolunu gözlədiklərini xatırladı, çörək satılan yerə gəldi. Satıcıya xırda gümüş verib çörək istədi. Çörək satan sikkənin üzərində padşah Daqyanusun təsvirini görüb Təmlihadan xəbər aldı: – Bu nə puldur? Sən bunu haradan götürmüsən? Sən yəqin padşah Daqyanusun xəzinəsini tapmısan?

Mən üç gün bundan əvvəl burada gilas satmışam və bunun müqabilində bu pulu qazanmışam, – Təmliha cavab verib getmək istədi.

Yox, mən səni buraxmayacağam. Sən bu sikkəni haradan götürdüyünü deməlisən. Sən bilirsən ki, Daqyanus padşah üç yüz il bundan əvvəl ölmüşdür və üzərində onun təsviri olan sikkələr artıq çoxdandır ki, dövriyyədə yoxdur. Deməli, sən bu padşahın xəzinəsini tapmısan və onu özündə gizlədirsən. Gedək padşahın yanına o, bu məsələni ayırd edər. Təəccüblənmiş və karıxmış Təmlihaya tabe olmaqdan başqa bir şey qalmadı. Onlar padşahın yanına gəldilər. Çörək satan padşahı məsələdən agah etdi, o, gümüş sikkə məsələsini padşaha xəbər verdi və belə bir ehtimal da irəli sürdü ki, çox güman ki, Təmliha ölmüş Daqyanus padşahın xəzinəsini tapıb. Müsəlman padşah dedi:

Təmliha, qorxma, həqiqəti aç, söylə. Yəqin sən bilmirsən ki, qanuna görə sən tapdığının yalnız beşdən birini mənim xəzinəmə verməlisən, qalan hissə isə sənindir. Təmliha and içir və padşahı inandırır ki, o, heç bir padşah xəzinəsi tapmamışdır və bu çörək satanın yalnız gümanı və uydurmasıdır. Onda padşah ona dedi:

Şəhərdə tanıdığın adamların adlarını mənə söylə, əgər onlar təsdiq etsələr ki, sən yaxşı adamsan və sənin heç bir yaramaz hərəkətini şahidi olmamışlar, onda mən səni sərbəst buraxacağam. Təmliha mindən çox adamın adını bir-bir saydı. Təəccüblü idi ki, onun adını çəkdiyi adamlardan heç biri sağ

deyildi, o hər dəfə hər hansı bir adamın adını çəkdikdə bir cavab eşidirdi. "Ölmüşdür, ölmüşdür, ölmüşdür". Padşah və onun adamlarını son dərəcə heyrətləndirən o idi ki, o yalnız ölmüşlərin adlarını çəkirdi, bir nəfər də olsun həyatda olanın adını çəkməmişdi. Padşah Təmlihadan xəbər aldı: Sənin evin haradadır?

Təmliha dedi: Buradadır. Mən Daqyanus padşahın ən yaxın adamlarından biriyəm, əgər istəsə mən ona öz evimi göstərərəm və əgər padşah mənə şərəf göstərib evimi ziyarət etsə, mən çox şad olaram.

Padşah mühafizəçiləri və yaxın adamlarının müşayiətində göstərilən evə getdi. Qapını döydülər, amma heç kim açmadı, qapını sındırıb içəri keçdilər. Evin həyətində çox qorxunc bir kişiyə rast gəldilər. Padşah üzünü kişiyə tutub dedi:
Bax, bu adam deyir ki, bu ev onundur.
Təmliha dedi:
Bəli, bu babamdan mənə miras qalmışdır. Bunu deyib həmin saat otaqdan bir taxt lövhə çıxardıb gətirdi. Lövhənin üzərində başda Təmlihanın adı olmaqla Daqyanusdan qaçmış altı şahzadənin yazılmış adlarını oxuyaraq xəbər aldı.

– Təmliha kimdir? Mənəm, – Təmliha dedi.
Qoca Təmlihanın sözlərini eşidərək üzüqoylu düşərək Təmlihanın ayaqlarını öpüb, ağladı və dedi:
Bu sənsən, mənim balam.
Bu vaxt şəhərdə iki padşah – xaçpərəst və müsəlman padşah hakimiyyət sürürdü. Hər iki padşah Təmlihanın qalan yoldaşları ilə tanış olmaq üçün öz müşayiətçiləri ilə Əshabi-Kəhf dağına tərəf getdilər. Onlar artıq bu adamların kim olduqlarını, şəhərdən nə üçün qaçdıqlarını, üç yüz ildən yuxarı yatdıqları mağarada neçə xilas olduqlarını bilirdilər. Hər iki padşah Əshabi-Kəhfə yaxınlaşdıqda Təmliha onlara dedi:

Xahiş edirəm, burada gözləyin və mənə icazə verin ki, sizin gəlişiniz və görüşmək arzusunda olduğunuz barədə onları xəbərdar edim. Padşahlar razı oldular. Təmliha mağaraya daxil oldu, yoldaşları onu sorğu-suala tutdular, şəhərdə bu qədər çox qalmağının səbəbini xəbər aldılar. Yoldaşları dedilər ki, artıq onunla nə vaxtsa görüşəcəklərini güman etmirdilər. Elə düşünürdülər ki, o, Daqyanus tərəfinədən tanınmış və öldürülmüşdür. Təmliha dedi:

Qardaşlar, bizim bu mağarada olduğumuz vaxtdan bəri üç yüz doqquz il keçmişdir, bizə isə elə gəlir ki, bir gecə yatmışıq. Daqyanus padşahla bir xristian padşah hökm sürür. Onların hər ikisi buraya gəlmiş və sizinlə görüşmək arzusundadırlar. Bayıra çıxın!

Yoldaşları ona dedilər:

Ey Təmliha, diqqətli ol, onlar bizi tutmaq və öldürmək istəyirlər. Allaha dua etməyə başlayaq və ondan xahiş edək ki, bizi həmişəlik yatırtsın! Padşahlar Təmlihanın və onun yoldaşlarının mağaradan çıxmasını çox gözlədilər, amma onlar mağaradan çıxmadılar. Onlar mağaraya girdilər və onları axtarmağa başladılar, lakin tapmadılar. Təmliha və yoldaşları möcüzəli bir şəkildə gözdən itmişdilər. Onda padşahlar başa düşdülər ki, onlar müqəddəs adamlar imiş və onlardan hər biri bu yerdə bir məbəd tikmək istədi. Müsəlman padşah xaçpərəst padşahı qabaqlayıb burada məscid tikdirdi. Əshabi-Kəhf dağının yanında tikilmiş məscid indi də mövcuddur. Yazın və yayın əvvəlində müsəlman dindarlar, möminlər buraya gəlir, bu məsciddə dua edir, altı müqəddəs insanın şərəfinə qurban kəsirlər.

Əshabi-Kəhfin yaxınlığında Dəmçixana adlı bir dağ vardır. Bu mağaradakı su damcısını rəvayət belə izah edir. Təmliha və onun dostları Əshabi-Kəhfdə yatdıqları zaman mağaranın girəcəyində olan bulaq möcüzəli şəkildə Dəmçixana dağına keçmiş və müəyyən vaxtlarda bu mağaradakı su damcılarına çevrilmişdir. Naxçıvan tatarlarında belə bir inam

vardır ki, öz taleyini bilmək istəyən hər bir kəs Dəmçixanaya getməli və oradakı mağaraya girib su damcısının başına damcıladığı vaxtadək orada dayanmalıdır. Damcının başına düşməsi həmin şəxsin arzusunun gerçəkləşəcəyi deməkdir. Əgər bu baş verməsə, nəzərdə tutulmuş işin uğurlu nəticəsini gözləməyə dəyməz.

**II aparıcı:** Muxtar respublikada tarixi abidələrin tədqiqi və beynəlxalq miqyasda təbliği istiqamətində həyata keçirilən ardıcıl tədbirlər də artıq öz bəhrəsini verir. Alimlərimizin xarici ölkələrin aparıcı elmi müəssisə və mütəxəssislərinin iştirakı ilə Naxçıvan tarixinə, arxeologiyasına, etnoqrafiyasına və folkloruna dair tədqiqatlar aparmasına, ekspedisiyaların təşkil olunmasına, müxtəlif mövzularda kitab, monoqrafiya, dərslik və elmi məqalələrin nəşr edilməsinə əsaslı təkan vermiş, beş minillik tarixə malik Naxçıvan şəhər mədəniyyəti tədqiqat mövzusuna çevrilmişdir. Aparılan tədqiqatların nəticəsi və elmi sübutu olaraq nəşr olunan minlərlə kitab və ensiklopediyalar da Naxçıvan tarixi ilə yanaşı, həm də bu qədim diyardakı abidələrin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malikdir. Xüsusilə, Azərbaycan və ingilis dillərində nəşr olunan "Naxçıvan abidələri ensiklopediyası", "Naxçıvan: türk-islam mədəniyyəti abidələri" kitabları Naxçıvandakı türk-islam mədəniyyəti abidələri haqqında dolğun məlumat verən dəyərli elmi ədəbiyyatdır. Naxçıvanın türk-islam abidələri bu qədim yurdun İslam mədəniyyətinə verdiyi ən dəyərli töhfə olmaqla yanaşı, həm də müasir dövrdə muxtar respublikanın turizm potensialının artmasına xidmət edir. Bu gün Naxçıvan tarixi abidələr və görməli yerlər üzrə səyahət turizminin ən ideal məkanlarındandır. Naxçıvana kimin ayağı dəyirsə ilk ifadələri bu olur: Yurdunuz memarlıq muzeyidir. Türbələr, məscidlər, Əlincə qüdrətli qalalar. Xudafərin ümidli körpülər, XII-XIV

əsrləri əhatə edən qədim imamzadələr, karvansaralar... Yaddaşımızın heykəlləri olan bu abidələrlə göz-gözə dayananda, miniatür qəlbli, xalça duyğulu naxışlarına, rənglərinə baxanda yüz illərin, min illərin xatirəsinə dalırsan. Bir sözlə, bu gün Naxçıvanda tarix, mədəniyyət, adət-ənənələr, milli və dini dəyərlər təkcə öyrənilmir, həm də qorunaraq yaşadılır. Tarixi yaşadanları isə tarix yaşadacaqdır.

## Naxçıvan Muxtar Respublikasının memarlıq abidələri

**Naxçıvan Muxtar Respublikasında 1162 tarixi-mədəniyyət abidəsi mövcuddur. Bu abidələrin 58-i dünya, 455-i ölkə, 649-uisəyerliəhəmiyyətlidir.** Tarixi-mədəniyyət abidələrinə aşağıdakılar daxildir:

| | |
|---|---|
| Arxeoloji-abidələr | 663 |
| Memarlıq-abidələri | 285 |
| Monumental-sənət-abidələri | 31 |
| Tarixi-abidələr | 36 |
| Ziyarətgahlar | 140 |
| Təbiət abidələri | 7 |

**Ağoğlan türbəsi**



Ağoğlan türbəsi Sədərək rayonunun Sədərək kəndinin şimalında ziyarətgahdır. Yerli əhalinin məlumatına görə, Seyid Pərinin qəbri üzərində tikilmişdir. Seyid Pəri və onun oğlu Ağoğlanla bağlı xalq arasında əfsanə vardır. Əfsanəyə görə, Ağoğlan bədniyyətli dərvişi öldürərək əhalinin firavan yaşayışını və rahatlığını təmin etmişdir. Bu ərazi xalq tərəfindən müqəddəs sayılaraq ziyarət edilir. Qəbirüstü abidə günbəzlə tamamlanan çoxüzlü prizma formasındadır. Türbənin girişi cənubdandır. Üzlərində tağşəkilli pəncərələri var. Ziyarətçilər dilək tutaraq şam yandırıb türbənin divarlarında oyuqlara qoyurlar. Türbənin ətrafındakı bulağın da suyu müqəddəs və şəfaverici hesab edilir.

## Aza körpüsü



Aza körpüsü Ordubad rayonunun, Aza kəndində, Gilançayın üzərində memarlıq abidəsidir. Aza kəndi ilə Darkəndi birləşdirən bu körpünün eni 3,5m, uzunluğu 46 paqonometrdir. Beş aşırımlıdır. Qırmızımtıl rəngli yonulmuş yerli dağ daşından inşa edilmişdir. Körpü inşa edilərkən yerləşdiyi ərazi nəzərə alınmış, tağlar arasındakı məsafə müxtəlif ölçülərdə qoyulmuşdur. Tağların dördündə dalğakəsən vardır. Hindistanı və Çini Qara dəniz sahilləri və Avropa ölkələri ilə birləşdirən mühüm ticarət-karvan yolu üstündə yerləşən Aza körpüsü Böyük İpək yolu ilə şərqdən qərbə və əksinə hərəkət edən ticarət karvanlarının işini asanlaşdırmaq üçün Səfəvi hökmdarı I Şah Abbasın zamanında (1587-1629) inşa etdirilmişdir. Buradan keçən ticarət karvanları ilə yerli məhsullar, o cümlədən quru meyvələr, sənətkarlıq məhsulları, ipək ixrac olunurdu. Baş verən təbii fəlakətlər və bəzi tarixi hadisələr nəticəsində dəfələrlə dağılmış, sonralar təmir edilmişdir. Güclü sel suları körpünün bir hissəsini yuyub dağıtdığından 1997-ci ildə əsaslı şəkildə bərpa olunmuş və yenidən qurulmuşdur. Hazırda Naxçıvandan

və Ordubaddan Azadkəndə gedən əhali və nəqliyyat vasitələri bu körpüdən istifadə edir. Körpü XVII əsrə aiddir.

## Came məscidi



Came məscidi Naxçıvan şəhərində memarlıq abidəsidir. Memarlıq-konstruktiv quruluşuna görə məscid XVIII əsrə aid edilir. Giriş qapısının baş tərəfində kitabə qoyulmuşdur. Əvvəli dini mətndən ibarət olan gözəl nəstəliq xətti ilə ərəb və fars dillərində mərmər lövhə (87x57 sm) üzərində həkk edilmiş kitabədə deyilir ki, bu Cəfəriyyə məscidi 1311-ci ildə (1894) naxçıvanlı mərhum Hacı Novruzun oğlu Xeyrül-Hacı Məhəmməd Cəfər ağanın səyi ilə bərpa edilmişdir. Həmçinin, kitabədə Hacı Məhəmməd Cəfər ağanın məscidin məsrəflərini ödəməkdən və mücavirlərdən ötrü çay yuxarısında 2 dükan ayırdığı da qeyd olunmuşdur. "Çay yuxarısında" - deyərkən vaxtilə şimal-şərqdən axaraq, cənub-qərbdə Araza qovuşan və Naxçıvan şəhərinin ortasından keçən Bazar çayı nəzərdə tutulur.

Bu çay 20-ci yüzilliyin 60-cı illərinədək Naxçıvan şəhərinin içərisindən axırdı. 60-cı illərdə çayın üstü beton plitələrlə örtüldü və görünməz oldu. Kitabədə məscidin memarı özünü "əgər məndən sonra məscidin memarını axtarsalar, səkkizinci imamdan sonrakı adla adlanıram"-deyə təqdim etmişdir. Məlumdur ki, şiələrin səkkizinci imamı Rza, doqquzuncu imamı isə Məhəmməd Təqidir. Deməli məscidin memarının adı Məhəmməd Təqi imiş. Kitabə vasitəsilə başqa mənbələrdən məlum olmayan iki görkəmli sənətkarın adı elmi dövriyyəyə daxil edilmişdir. Onlardan biri məscidin memarı Məhəmməd Təqi (həmçinin, o, kitabənin mətnini mərmər lövhə üzərində yazmışdır), ikincisi isə kitabəni həkk edən Məhəmməd Salehdir. Məscidin ümumi sahəsi təqribən 1000 *m2*-dir. Bir minarəlidir. 1918-ci ildə ermənilər Naxçıvanda yerli əhaliyə qarşı soyqırım tətbiq edərkən top atəşi ilə minarəni zədələmişlər. Sonralar minarə bərpa olunmuşdur. Sovet hakimiyyəti illərində Naxçıvan şəhərində, ümumiyyətlə muxtar respublikada fəaliyyət göstərən yeganə məscid olmuşdur. 2007-ci ildə məsciddə əsaslı bərpa işləri aparılmışdır.

## Culfa (Gülüstan) karvansarası



Memarlıq abidəsi olan Culfa karvansarası Culfa rayonunun Gülüstan kəndində, Araz çayının sol sahilindədir. Culfa (Gülüstan) karvansarasının qalıqları 1974-cü ildə çöl-tədqiqat işləri zamanı aşkar edilmiş, 1978-ci ildə binanın planı tam üzə çıxarılmışdır. Bakı-Culfa dəmiryolu xətti çəkilərkən (1939-1940) karvansaranın təqribən yarısı dağılmışdır. Tədqiqatlar nəticəsində Culfa karvansarasının Azərbaycanda yol karvansaraları içərisində ən görkəmli və möhtəşəm abidə olduğu müəyyənləşdirilmişdir. Ümumi uzunluğu 37 m olan Culfa karvansarasının eyni tipi Araz çayının sağ sahilində, demək olar ki, bütünlüklə salamat qalmışdır. Karvansaraların hər iki sahildə üzbəüz yerləşməsi hələ Araz çayı üzərində körpü tikilməzdən əvvəl burada çay bərəsinin işlədiyini göstərir və karvansaraların tikilmə dövrünü XIII əsrin əvvəllərinə aparıb çıxarır. Karvansaralar çaydaşıdan tikilmiş və gəc məhlulu ilə suvanmışdır. Culfa karvansarasının aşkar olunmuş hissəsində çoxlu yaşayış otaqları vardır. Bəzi otaqların örtük hissəsi

maraqlı konstruksiyaya malikdir. Binanın şimal tərəfində sağ və solda tağ formasında dərin divar oyuqları olan böyük zal mövcuddur. Bu zal haqqında qəti fikir söyləmək çətindir. Lakin belə plan quruluşuna malik köhnə məscidlər də məlumdur.

## Darkənd gümbəzi



Darkənd gümbəzi Ordubad rayonunun Darkənd kəndində yerləşir. Gümbəz kompozisiyası və dekorativ elementləri ilə fərqlənir. Darkənd türbəsi kərpicdən hörülmüş, orta hissəsi bürcvari türbələr biçimində olub, yuxarı hissədən günbəzlə tamamlanır. Abidənin dörd tərəfində yerləşən portallar qülləvarı türbələrə xas olsa da, mərkəzi özəyə söykənən, bir növ, dayaq

divarlarını xatırladan quruluşa malikdir. Türbənin üzərindəki tünd-bənövşəyi rəngli kaşı və adi bişmiş kərpicdən hörülmüş sadə naxışlar yeganə bəzək elementidir. Üzərində kitabə olmadığından türbənin tarixini dürüst müəyyənləşdirmək mümkün deyildir. Lakin kompozisiya quruluşu, üzərindəki kaşı bəzəklərinin rəngi abidənin Qarabağlar və Bərdə türbələrindən daha sonra tikildiyi mülahizəsini irəli sürməyə imkan verir. Bu mülahizəyə əsasən Darkənd türbəsinin XIV əsrin axırlarında və ya XV əsrin əvvəllərində inşa edildiyi ehtimal olunur.

**Dırnıs məscidi**



Dırnıs məscidi Ordubad rayonunun Dırnıs kəndinin Yuxarı məhəlləsində, Mirzə küçəsində tarix-memarlıq abidəsidir. Kənddə həcminə görə ən iri məscid olduğundan el arasında Böyük məscid adlanır. Came məscididir. Girişi qərbdəndir.

Qadınlar üçün giriş şərq tərəfdəndir. Tavan 5x2=10 dirəyin üstündə dayanıb. Şərq və şimal divarın qarşısında qadınlar üçün ikinci mərtəbə-balkon düzəldilib. Şərq divarda 3, qərb divarda 2, cənub divarında isə 3 böyük pəncərə var. Məscidin dirəklərindən birinin sütun başlığı üzərində qara rənglə yazılan kitabədən aydın olur ki, məscid hicri 1339-cu ildə (1920-1921) təmir olunmuş, təmir işlərini Ordubadlı usta Həsən həyata keçirmişdir. 1999-cu ildə əhalinin vəsaiti ilə yenidən təmir olunmuş, bu zaman məscidin qərbdən giriş qapısının qarşısında balkon düzəldilmiş və minarə hörülmüşdür. Memarlıq-konstruktiv quruluşuna görə XVII əsrə aid edilir.

**Əlincəçay xanəgahı**

Culfa rayonunun Xanəgah kəndində, Əlincəçayın sahilində yerləşən Əlincəçay xanəgahı orta əsrlərə aid memarlıq kompleksidir. El arasında Şeyx Xorasan adlanan kompleksdən zəmanəmizədək türbə, məscid və bəzi tikililərin qalıqları gəlib çatmışdır. Kompleksə daxil olan türbənin cənubdan giriş



qapısının baş tərəfində qoyulan kitabənin məzmunundan aydın olur ki, türbə

əmir, isfəhsalar, böyük alim Uluq Qutluq Lala bəyin əmri ilə memar Xacə Cəmaləddin tərəfindən inşa edilmişdir. Kitabənin son hissəsi ovulub töküldüyü üçün onun inşa tarixini dəqiq təyin etmək mümkün olmamışdır. Ancaq memarlıq-konstruktiv quruluşuna görə onu XII-XIII əsrlərə aid etmək olar. Türbənin içərisində bir qəbir vardır. Ancaq qəbrin üstündə kitabə olmadığı üçün orada kimin dəfn edildiyi məlum deyildir. Yerli əhalinin fikrincə, hürufilik təliminin banisi Fəzlullah Nəimi 1394-cü ildə Əlincədə faciəli surətdə qətlə yetirildikdən sonra müridləri onun cənazəsini gətirib burada dəfn etmişlər. Məhz buna görə də Xanəgah kompleksinə yerli əhali arasında verilən ad (Şeyx Xorasan) tədqiqatçılar tərəfindən F. Nəiminin ləqəblərindən olan Şeyx Xurasa (Günəşə oxşar, Nurani şeyx) və F. Nəiminin təhsil alıb kamilləşdiyi Xorasandan Azərbaycana gəldiyi üçün Xorasanlı şeyx, Xorasan şeyxi kimi izah edilir. Türbənin cənubunda ona bitişik inşa edilmiş türbə-məscid xanəgahda fəaliyyət göstərən sufi təriqətinin rəhbərlərindən olan Şeyx Hacı Lələ Məliyin xatirəsinə hicri 901-ci (miladi 1495-1496) ildə Xond Bikə xatın tərəfindən inşa edilmişdir. Orta əsrlərdə sufi şeyxləri ailələri ilə birlikdə xanəgahlarda yaşayır, öldükdən sonra xanəgahın yanında dəfn olunurdular. Şeyx Hacı Lələ Məlik də xanəgaha rəhbərlik edərək orada yaşamış, vəfat etdikdən sonra öz xanəgahının yanında dəfn olunmuş və qəbrin üstündə Xond Bikə xatın (ehtimal ki, şeyxin arvadı olmuşdur) türbə-məscid inşa etdirmişdir. Xond Bikə xatın vəfat etdikdən sonra özü də xanəgahın ətrafında dəfn edilmişdir. Ona məxsus sənduqə tipli xatirə abidəsi hazırda Xanəgahın yanında qalmaqdadır. Xanəgahın ətrafında bərpa işləri aparılarkən torpağın altından 1444-1445-ci, 1491-1492-ci, 1493-cü illərə aid məzar kitabələri aşkar olunmuşdur. Xanəgah uzun müddət orada fəaliyyət göstərən dərvişlərin yaşayış, ibadət və zikr yeri olmuşdur. Epiqrafik dəlillərə əsasən aydın olur ki, xanəgah XVIII əsrdə də fəaliyyət göstərmiş və onun üzvləri buradan öz ideyalarını yaymışlar.

**Əshabi-Kəhf**



Naxçıvan şəhərindən təqribən 12 km aralı, İlandağ ilə Nəhəcir dağı arasındakı təbii mağarada ziyarətgah olan Əshabi-kəhf ərəb dilində "mağara sahibləri" deməkdir. Qurani-Kərimdə "əl-Kəhf" surəsinin 9-27 ayələrində Allahdan başqasına inananlardan ayrılıb mağaraya sığınan 7 gəncin (Təmlixa, Bərnuş, Sərnuş, Məksilma, Məslina, Sazənuş, Kəftəntuş (çoban) və onlara sadiq olan itləri Qıtmir) 300 ildən artıq yatdıqlarından, oyandıqdan sonra başlarına gələnlərdən bəhs edilir. Qurani-Kərimdə mövcud olan hadisə müəyyən dəyişikliklərlə Naxçıvandakı Əshabi-Kəhflə bağlı rəvayətlərdə də öz əksini tapmışdır. Uzun illər bir sıra ədəbiyyatda mövcud olmuş yanlış fikrə görə hadisə xristianlıqla əlaqələndirilmiş, Qurani-Kərimdə adı çəkilən mağaranın Kiçik Asiya və ya Fələstin ərazisində, hətta dünyanın digər ölkələrində olduğu güman edilmişdir. Həmin ədəbiyyatlarda Naxçıvanda olan Əshabi-Kəhf mağarasından və rəvayətdən bəhs olunmamışdır. Lakin son dövrdə aparılmış araşdırmalar sübut edir ki, Qurani-Kərimdə adı çəkilən Əshabi-

Kəhf mağarası Naxçıvan ərazisindədir və bunun xristianlıqla heç bir əlaqəsi yoxdur. Mağaranın sonunda olan məscidin mehrabında kitabə vardır. İri həcmli mərmər lövhədən (145x35 *sm)* ibarət olan kitabənin mərkəzi hissəsində, çərçivələr içərisində Qurani-Kərimin Əshabi-Kəhf hadisəsindən bəhs edən "əl-Kəhf" surəsindən 9-12, 17-18-ci ayələri həkk edilmişdir. Lövhənin kənarlarında, sağ tərəfdə yuxarıdan başlayaraq sol tərəfdə başadək ensiz, lentvarı haşiyə şəklində yazılan kitabənin məzmunu belədir: "Qar, yağış təsirindən burada yazılmış xətlər məhvolmuşdu.



Ona görə də bu əzəmətli məkanın taleyi barəsində Naxçıvan ölkəsinin hakimi Şükrulla xan Kəngərli-adı çəkilən ölkənin keçmiş hakimi, xeyirxah əməllər banisi Heydərqulu xanın xələfi-qərar verərək buyurdular ki, həmin lövhənin üzünü təzədən, səhvsiz ayrı bir daş lövhəyə yazdırsınlar və yadigar olaraq keçmiş lövhənin yerinə nəsb etsinlər. Bu əmrə əsasən mərhum, mömin Molla Mustafanın oğlu Məhəmməd Xətib Naxçıvani işə başlayıb, 1190-cı

ilin səfər əl-müzəffər ayında (22.03-20.04-1776) lövhəni yazıb qurtarmışdır". Göründüyü kimi əvvəllər bu kitabənin yerində Qurani-Kərimin qeyd olunan ayələri həkk olunmuş ayrı bir kitabə olmuş, ancaq zaman keçdikcə təbii amillərin təsirindən aşındığı üçün həmin vaxt Naxçıvan ölkəsinin hakimi olan Şükrulla xan Kəngərlinin əmri ilə mətn ayrı bir mərmər lövhəyə yazılıb onun yerinə qoyulmuşdur.

Ümummilli lider Heydər Əliyevin tapşırığı və himayəsi ilə Əshabi-Kəhfdə abadlıq-bərpa işləri aparılmışdır. Ziyarətgahın girişində bu haqda məlumat verən kitabə qoyulmuşdur. Kitabədə deyilir: "Əshabi-Kəhf ziyarətgahında bərpa və abadlıq işləri 1998-ci ildə Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin tapşırığı və himayəsi ilə görülmüşdür". Son illərdə Əshabi-Kəhf ziyarətgahının ərazisində yenidənqurma, bərpa və abadlıq işləri aparılmışdır. Bərpa və abadlıq işləri zamanı Əshabi-Kəhfdə zəvvarlar üçün yaxşı şərait yaradılmış, 13 *km* məsafədə rahat yol salınmış, yolboyu yaşıllaşdırma işləri aparılmış, məscid tikilmişdir. Hazırda buraya Azərbaycanın başqa bölgələrindən və xarici ölkələrdən zəvvarlar, turistlər və qonaqlar gəlir.

**Fərhad Evi**



Fərhad evi Şahbuz rayonunun Biçənək kəndindən şərqdə, Batabat yaylağında arxeoloji abidədir. Naxçıvan-Laçın-Yevlax avtomobil yolundan sağda, Zorbulaqdan təqribən 1 km şərqdədir. Liparit tuf qayada külüng tipli metal alətlə qazılmış dörd otaqdan ibarətdir. Onlar bir istiqamətdə gedən düz keçid yolu vasitəsilə birləşirlər. Tavanlar tağ şəkilli, döşəmələr oval planlıdır. Divarlarda şam, yaxud çıraq qoymaq üçün kiçik taxçalar qazılmışdır. Divarların dibində səki düzəldilmişdir; birinci otağın sağ küncündə quyu ocaq yeri var. Giriş qapısının hündürlüyü 2,20 m, eni 1,30 m-dir. Fərhad evinin olduğu qayanın girişinin sağında qaya üzərində uzun saçlı kişi başı, solunda qadın rəsmi həkk olunmuşdur. Qayanın şimali-şərq yamacında buradan keçən qədim karvan yolunun səviyyəsindən 2 m hündürlükdə uzunluğu 5 m, eni 80 sm, dərinliyi 30 sm olan səki qazılmışdır; səki boyunca 3 sətirlik qədim yazı həkk olunmuşdur Məzmunu oxunmaz vəziyyətə salınmış yazı çox

güman ki, mixi yazısıdır. Yaxınlıqdakı kurqan tipli abidə üzərindəki vişap oğurlanmışdır. Naxçıvan şəhərindən Fərhad evinə bir mənzil karvan yolu var. Naxçıvan-Laçın-Yevlax yolu Yaxın Şərqi Cənubi Qafqazla əlaqələndirən ən əlverişli yollardan sayılırdı. Batabat yaylağında Fərhad evi adı ilə tanınan dayanacaq məntəqəsi yaradılmışdı. Orta əsrlərdə Naxçıvan-Batabat yolunda gediş-gəliş artdığından Fərhad evindən bir qədər şimalda iri karvansara tikilmişdi. Yerli əhali bunu Şah Abbas karvansarası adlandırır. Tədqiqatlar Fərhad evi abidələrinin e. ə. I minilliyin sonlarına və eramızın əvvəllərinə aid olduğunu söyləməyə imkan verir. Fərhad evi ilə bağlı xalq arasında müxtəlif rəvayətlər yayılmışdır.

**Gəmiqaya**



Ordubad rayonu ərazisində, Tivi və Nəsirvaz kəndlərindən şimal-şərqdə dağ, Zəngəzur silsiləsinin suayırıcında zirvə olan Gəmiqayanın hündürlüyü 3725 metrdir. Sıldırım yamaclı, konusvarı formaya malik olan dağ qədim vulkanik süxurlardan əmələ gəlmişdir. Min illər boyu Naxçıvan əhalisinin iqtisadi həyatında mühüm əhəmiyyət kəsb edən Gəmiqaya yaylaqlarının

ərazisi bir növ müqəddəsləşmiş, hətta burada təbii məbədlər meydana gəlmişdir. Adı Nuh əfsanəsi ilə bağlıdır. Yalçın, şiş qayalı zirvəsi daim qarla, ağ buludlarla örtülü olan bu dağ uzaqdan mavi səma fonunda bir növ ümmana baş vurub üzən nəhəng gəmiyə bənzəyir. Görünür, belə zahiri oxşarlığa əsasən Kiçik Qafqazın ən yüksək zirvəsi olan Qapıcıq dağına (3904 m)xalq arasında Gəmiqaya adı verilmişdir. Qədim dünyanın müqəddəs panteonlarından sayılan Gəmiqaya özünün əzəmətli, fantastik görünüşü ilə insanı heyrətə gətirir. Burada e. ə. 4-1-ci minilliklərə aid minə yaxın qayaüstü rəsm - piktoqramlar (qədim yazılar) vardır.

## Gilan türbəsi

Gilan türbəsi Ordubad rayonunda orta əsrlərə aid memarlıq abidəsidir. 1979-cu ildə Xaraba Gilan şəhəri yerində aşkar edilmişdir. Şərti olaraq "Gilan türbəsi" adlandırılan bu abidə iri təpənin yamacında yerləşir. Türbənin üst qülləsi dağılmış, sərdabəsi isə yaxşı qalmışdır. Sərdabənin planı daxildə səkkizbucaqlı, xaricdə isə düzbucaqlıdır. İçərisində sonradan tikildiyi aydın görünən və iç quruluşu ilə uyuşmayan alçaq səki var. Gilan türbəsinin sərdabəsi Azərbaycan və qonşu ölkələrin orta əsr memarlığında geniş yayılmış səkkizüzlü sərdabələrdən giriş qapısı ilə üzbəüz dərin taxçasına və örtük konstruksiyasına görə fərqlənir. Gilan sərdabəsində örtüyün ortası iç məkanın mərkəzində ucalan göbələkvarı -yuxarıya doğru genişlənən sütuna dayanır. Sütun da planda səkkizbucaqlıdır. Buna bənzər mərkəzi dayaq sütunu Azərbaycan ərazisində indiyədək yalnız iki abidədən-Marağadakı Qırmızı günbəz (1148) və Naxçıvandakı Möminə xatın (1186) türbələrinin sərdabələrindən bəllidir.



Gilan türbəsi Marağa-Naxçıvan memarlıq məkanında olmasına baxmayaraq, memarlıq quruluşu, konstruksiya baxımından Şərqi Anadolunun (Türkiyə), Kemah qəsəbəsindəki Menqucuq Qazi türbəsinin (XII əsrin əvvəlləri) alt qatı ilə, demək olar ki, eynidir. Hər iki sərdabənin həcmi və hündürlüyü də bir-birinə çox yaxındır. Kemahdakı türbənin də Marağa-Naxçıvan memarlıq məktəbi nümayəndəsi tərəfindən tikilməsi ehtimalı güclüdür. Çünki həmin illərdə Menqucuqların əsas tikililərini iki azərbaycanlı memar yerinə yetirirdi. Onlardan birinin - memar Əhməd Əbubəkr oğlu Mərəndinin Sivasda ucaltdığı Keykavus türbəsi görünüşcə Gilan və Kemah türbələrinə bənzərdir. Gilan sərdabəsi ətraf qayalardan qopardılmış lay daş parçalarından tikilmişdir. İçərisinə nisbətən bayır üzlərində daşlar daha diqqətlə yonulmuş, hörgü işi səliqəli aparılmışdır. İnteryerdə tavan və döşəmə büsbütün, eləcə də divarların və mərkəzi dayağın hörgü daşlarının arası ağ məhlulla suvanmışdır. Tünd boz daşlar təbii biçimləri və codluğu ilə ağ yerlikdə orijinal dekorativ düzüm əmələ gətirir. Bütövlükdə, sərdabə interyerinin ifadəliliyi biçimlərin təmiz həcm quruluşuna əsaslanır, estetik tələblərə uğurla cavab verməklə fəzalı plastik arxitektonikası ilə

gözəl təsir bağışlayır. Bayırda sərdabə qatının üstündə kubvarı tutumlu gövdə ucaldılmışdır. Uçub dağılmış və indiyədək kiçicik fraqmentləri qalmış üst qüllə tamamilə kərpicdən tikilmiş, üzləri kərpicdən hörülmüş, mürəkkəb həndəsi naxışlarla bəzədilmişdir. Gövdənin künclərini silindrik kərpic sütunlar qapayırmış. Sütunlardan birinin alt bölümü qalmışdır. Bəzək işlərində göy rəngli kaşı lövhələr də işlədilmişdir. Gilan türbəsinin tikilmə tarixini bildirən kitabə qalmasa da, abidənin XII əsrin son rübündə inşa edildiyi ehtimal olunur.

**Gülüstan türbəsi**



Orta əsrlərə aid Azərbaycan memarlıq abidəsi olan Gülüstan türbəsi Culfa rayonunun Gülüstan kəndi yaxınlığındadır.

Möminə Xatun türbəsinin təsiri ilə XIII əsrin əvvəllərində tikilmiş Gülüstan türbəsi Azərbaycanın qülləvarı türbələri qrupuna daxildir. Türbənin 12 üzlü gövdəsi qırmızı qumdaşıdan, orijinal quruluşlu kürsülüyü (küncləri kəsilmiş kub formasındadır) isə yonulmuş daşdan tikilmişdir.Azərbaycanın digər türbələrindən fərqli olaraq, Gülüstan türbəsinin sərdabəsi yerüstü hissədə (kürsülüyündə) yerləşir. Kürsülük xaricdən kəsik piramida, daxildən silindrik quruluşa malikdir. Planda kvadrat (6,6 x 6,6m) olan kəsik piramida xaricdən yuxarıda düzgün onikibucaqlıya çevrilir, onun üzərində isə onikiüzlü üst kamera yerləşir. Türbənin üst çadır örtüyü tamamilə dağılmışdır. Odur ki, bu çadır örtüyünün piramidaya oxşar və ya konik biçimdə olmasını müəyyənləşdirmək çətindir. Türbənin səthləri oyma həndəsi ornamentlərlə bəzədilmiş, dekorativ tağlarla çərçivələnmişdir. Qüllənin üzlərinin hər biri qabarıq tinlərin haçalanması yolu ilə tağlarla tamamlanır. Əcəmi Naxçıvaninin türbələrində olduğu kimi burada da taxçaların içi incə həndəsi naxışlarla örtülmüşdür. Oniki üzdə naxışları diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, burada ardıcıllıq yalnız ardıcıl təkrarlanan üç növ həndəsi naxış çeşnisindən ibarətdir.

Gövdənin oturacaqla birləşən hissəsi, eləcə də günbəzə keçid yeri stalaktit şəkilli oyma qurşaqla əhatə edilmişdir. Ornamentlərlə digər bəzək elementlərinin üzvi surətdə birləşdirilməsi və əlaqələndirilməsi abidəyə qabarıq və elastik görkəm verir. Gülüstan türbəsinin fəza quruluşu çevrədən kvadrat əsasa, kubik tutumdan konik əsasa və beləliklə, mütənasiblik sistemlərinin bir-birinə keçməyin bədii texniki həllinin parlaq nümunəsidir. Belə türbələrin geniş yayıldığı ərazi Anadolu olduğuna görə Gülüstan türbəsini mərkəzi Azərbaycan və Anadolu Səlcuq türbələrinin soy birliyinin baş göstəricisi hesab etmək olar. Memarlıq formalarının arasında mütənasiblik, biçim və naxışlarının incəliyinə görə Gülüstan türbəsi bu daş türbələrdən üstünlüyü ilə seçilir.

**Hacı Huseynqulu məscidi**

Hacı Hüseynqulu məscidi Ordubad rayonunun Gənzə kəndində tarixi-memarlıq abidəsidir. Kəndin mərkəzində yerləşir. Ölçüsü 23x14 *m*-dirMəscidin üzərində kitabə olmasa da yerli camaatın



dediyinə görə onu Hacı Hüseynqulu adlı nüfuzlu bir adam tikdirib. Öldükdən sonra özü də məscidin cənub divarının qarşısında dəfn olunub. Məsciddə olduğu kimi qəbirin üstündə də heç bir epiqrafik sənəd-kitabə yoxdur. Ancaq son zamanlar məscid bərpa edilərkən qəbirin üstü də götürülmüş, mərmər başdaşı və sinədaşı qoyulmuşdur. Başdaşının üstündə ərəb əlifbası ilə "Mərhum Hacı Hüseynqulu, 16-cı əsr" sözləri həkk edilmişdir. Naxçıvan bölgəsində ən qədim məscid nümunələrindən olan abidənin daxili böyük salondan ibarətdir. Sonralar, deyilənə görə, 20-ci əsrin əvvəllərində qərb tərəfdən əlavə bina tikilib kişilərə aid salona birləşdirilib. Məscidin əsas, qədim hissəsi daşdan üç böyük sütunun və divarların üstündə dayanıb. Sütunların arası və sütunlarla divarların arası tağvari birləşdirilib. Divarların qalınlığı 1 *m*-dir. Məscidin içərisində,

divarlarda 5 divariçi-taxça düzəldilib. Girişin önündə eyvan var. Eyvanın fasadı 12 tağdan ibarətdir. Məscidin yanında qonaq otağı vardır. Məscid təmir olunarkən divarlarında gəc üzərində rənglə dini xarakterli kəlamlar yazılmışdır. Təmir zamanı cənub-qərb tərəfində gözəl bir minarə ucaldılıb. Minarənin üstündə belə bir kitabə qoyulub: "Məscidin minarəsi 2000-ci ildə Hacı İsrafil Sadıqlı tərəfindən tikdirilmişdir. Memarları Kərbəlayi Səyid, Kərbəlayi Qurban". Kənddə yas mərasimləri bu məsciddə keçirilir, həmçinin məhərrəmlikdə və orucluqda burada dini mərasimlər icra olunur. Məscidin cənubunda olan qəbiristanlıq da vaxtı ilə Hacı Hüseynqulunun torpaq sahəsi olmuş, onu qəbiristanlıq üçün bağışlamışdır. Orada olan məzar kitabələrinə əsasən demək olar ki, Hacı Hüseynqulu 15-ci əsrdə yaşamış, məscidi də həmin vaxt inşa etdirmişdir.

**Xan Sarayı**

Xan Sarayı Naxçıvan şəhərində XVIII əsrə aid tarixi-memarlıq abidəsidir. Şərq memarlıq üslubunda tikilmiş abidə XX əsrin əvvəllərinə qədər Naxçıvan xanlarının yaşayış evi olmuşdur. Sarayı XVIII əsrin sonunda axırıncı Naxçıvan xanı Ehsan xanın atası Kəlbəli xan Kəngərli tikdirmişdir. Xan Sarayı 3600 $m^2$ sahəsi olan saray kompleksinin qərbində, xan dikinin relyefinə uyğun olaraq üzü günçıxana tərəf inşa edilmişdir. Xan Sarayı kompleksində 42x8 m ölçüdə yardımçı bina, yeni inşa olunmuş hovuz, su quyusu, yaşıllıq zolaqları, bəzək və meyvə ağacları var. Bina iki mərtəbəlidir. Vaxtilə saray iki ayrı-ayrı bölmədən ibarət olub. Cənub bölmə inzibati işlər və yüksək mənsəbli qonaqların qəbulu, şimal bölmə isə xan ailəsinin yaşayışı üçün nəzərdə tutulub. Bölmələrə giriş ikimərtəbəli, balkon tipli çatma tağlı dəhlizlərdən olub. Hal-hazırda sarayda muzey yerləşdiyinə görə yalnız cənub dəhlizdən istifadə olunur. Bölmələr arasında daxili keçid yaradılıb. Dəhlizlər əsas fasaddan qabağa çıxarıldığı üçün binaya xüsusi gözəllik verir.

Dəhlizlərə qırmızı qum daşı ilə döşənmiş pilləkənlərlə qalxılır. Pilləkənlərin ətrafı kərpiclə hörülüb və ağac məhəccərlərlə bərkidilib.




Xan Sarayının ümumi sahəsi 382 $m^2$, divarlarının qalınlığı 60 sm-dən 1,1 m arasında dəyişir. Bina 20x20x5 sm ölçüdə bişmiş kərpiclə tikilmişdir. Pəncərələrdə şəbəkə üslubundan və bütün otaqlarda Naxçıvan yaşayış evlərinə xas olan müxtəlif ölçülü taxçalardan istifadə olunmuşdur. 1-ci mərtəbədə 3 otaq, 2-ci mərtəbədə 8 otaq (2 zal) və otaq kimi istifadə olunan vestibüllərin üzərində 2 mansar yerləşir. Hər iki mansardan dəhlizlərin üstündəki açıq balkonlara çıxış var. Mansarlara vestibüllərdən açılmış kərpic pilləkənlərlə qalxılır. Xan Sarayının cənub zalı daha dəbdəbəlidir. Qonaq qəbulu üçün nəzərdə tutulmuş zalın qərbində döşəmədən 40 sm hündürlükdə səhnə tipli taxt yaradılmışdır. Taxtlı güşənin açılan pəncərələri yerdən tavana qədər şəbəkələrlə, tavanı isə kiçik güzgü parçaları ilə nəfis bəzədilmişdir. Zalın digər divarları taxçalar, nəbati və süjetli rəsmlərlə işlənmişdir. Sonralar aparılan çoxsaylı təmir və bərpa işləri zamanı rəsmlər pozulmuş və ya üzəriləri suvaqla

örtülmüşdür. Zalın əzəmətini cənub divardakı, ətrafı həndəsi formalar və güzgü parçaları ilə bəzədilmiş buxarı daha da artırır. Bina divarlara yerləşdirilmiş iki buxarı vasitəsilə isidilirmiş. Xan Sarayı 1998-ci ilin aprelindən Naxçıvan Dövlət Xalça Muzeyi kimi fəaliyyət göstərir. Muzey 8 zaldan ibarətdir, bunlardan biri Naxçıvan xanlarına həsr olunmuşdur. Yaradıldığı vaxt muzeydə 359 eksponat qeydə alındığı halda, hazırda onların sayı 2000-dən (305 xalça) artıqdır. Burada, demək olar, bütün xalça növlərinin (xovlu: gəbə, zili və xovsuz: sumax, vərni, kilim, palaz, şəddə, cecim və s.) və xalça məmulatlarının (məfrəş, heybə, xurcun, çuval, örkən və s.) nümunələri nümayiş etdirilir. Muzeydə Gəncə-Qazax, Quba-Şirvan, Qarabağ, Təbriz-Naxçıvan xalçaçılıq məktəblərinə məxsus XVIII-XIX əsrlərə aid xalça nümunələri saxlanılır. Çeşnilərinə görə "Qollu çiçi", "Pirəbədil", "Alpan", "Qədim əfşan", "Ovçuluq", "Zili", "Köhnə buta", "Naxçıvan", "Qasımuşağı" və s. xalçalarla yanaşı, süjetli xalçalar [Azərbərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin portreti toxunmuş xalça (xalq rəssamı K.Əliyev), "Leyli və Məcnun", "Qarabağ mənzərəsi", "Boz qurdlar", "Gəncə gözəli" və s.] da əhəmiyyətli yer tutur. Muzeydə məişət əşyaları -misgərlik nümunələri, saxsı və çini qablar, qədim kişi və qadın milli geyimləri də nümayiş etdirilir.

## Xanəgah türbəsi



Xanəgah türbəsi Culfa rayonunun Xanəgah kəndində, Əlincəçayın sahilində orta əsrlərə aid edilən memarlıq abidəsidir. Orta əsr Xanəgah yaşayış yerinin mərkəzindədir. Əlincəçay xanəgahı memarlıq kompleksinin tərkibinə daxildir. Türbə binasında qapı yerinin üstündən düşmüş kitabəli daş lövhə türbənin içərisində saxlanılır. Kitabədə türbə binasının şəhid əmir Seyyid Əhməd əl-Oğul-Şaminin oğlu, sahib əl-əzəm (vəzir) Hacı Məhəmmədin Qaraqoyunlu Cahanşah dövründə (1435-1467) oğlu Əmirxan üçün tikdirdiyi göstərilir. Giriş baştağının memarlıq elementləri Möminə xatın türbəsinin elementlərinə oxşayır. Türbə sərdabə planında düzbucaqlı formada olub, daş və kərpicdən tikilmişdir. Bərkidici maddə kimi əhəng qatılmış kəc məhlulundan istifadə edilmişdir.

## İmamzadə kompleksi

İmamzadə kompleksi Naxçıvan şəhərinin cənub-şərq hissəsində memarlıq abidəsidir. XVI-XVIII əsrlərdə formalaşmışdır. 3 binadan ibarətdir. Kompleksin özəyini planda kvadrat şəkilli, xarici görünüşünü isə kubik formalı qülləvarı türbələrdən gələn dairəvi gövdənin qovuşduğu kompozisiya-türbə təşkil edir. Türbənin içərisində əhali tərəfindən ziyarət edilən bir qəbir vardır. Qəbirin üstü sənduqə formasında düzəldilmiş, sementlə suvanmış, üstünə qara örtük salınmışdır. Qəbirin üzərində epitafiya- məzar kitabəsi olmadığı üçün onun mənsubiyyəti, kimə aid olması haqqında dəqiq fikir söyləmək mümkün deyildir.



Türbənin şimal-qərb tərəfində nəsx xətti ilə ərəb dilində yazılmış kitabə olmuşdur. Kitabədə tarix qeyd olunmasa da orada vurğulanan "Əbu Müzəffər şah Təhmasib Bahadur xanın hakimiyyəti zamanında" sözlərinə əsasən türbənin inşa tarixini müəyyənləşdirmək mümkündür. Əbu Müzəffər şah Təhmasib Bahadır xan Səfəvi hökmdarı şah Sultan Hüseynin oğludur.

Tarixdə II şah Təhmasib adı ilə tanınan bu adam 1722-1732-ci illərdə hakimiyyətdə olmuşdur. Deməli, türbə XVIII əsrin 20-ci illərində inşa etdirilmişdir. Türbənin yaxınlığında Naxçıvan şəhərinin antik və orta əsrlərdə mövcud olmuş ikinci qala divarının qalığı aşkar edilmiş, sənətkarlıq nümunələri tapılmışdır. Türbəyə bitişən, nisbətən böyük həcmə malik və qərbdən giriş qapısı olan bina kompleksin mərkəz hissəsini təşkil edir. Kompleksdən azca aralı şimal tərəfdə başqa bir türbə vardır. Bişmiş kərpicdən inşa edilən bu türbə aşağıdan kvadratşəkilli götürülərək yuxarıda çoxbucaqlı şəkildə inşa olunmuş, üstü günbəzlə örtülmüşdür. Kompleksə daxil olan başqa tikililərlə müqayisədə bu türbə yaxşı vəziyyətdə qalmışdır. Ancaq onun içərisində heç bir qəbir və xatirə kitabəsi qalmadığından təyinatı aydınlaşdırılmamışdır. İmamzadə kompleksinə daxil olan binalar bir-biri ilə uyarlıqda olub, bitkin memarlıq ansamblı yaratmışdır. Kompleksin ətrafında orta əsrlərə aid qəbiristanlıq olmuşdur. Zaman keçdikcə buradakı qəbirlərin bir hissəsi dağılmış, bir hissəsi isə indiyədək qalmaqdadır. Orada torpağın altından aşkar edilmiş XVI əsrə aid məzar kitabələri tədqiq edilmişdir. Burada bişmiş kərpicdən hörülmüş tağvari sərdabələrə təsadüf olunmuşdur. Zaman keçdikcə nekropolun yeri dəyişmiş və abidənin yaxınlığındakı təpəyə keçmişdir. Orta əsrlərdə ərazidə fəaliyyət göstərən bəzi sufi təriqətlərinin üzvləri kompleksdən bir müddət özlərinin yaşayış, ibadət və zikr yeri - xanəgah kimi istifadə etmişlər. Ümumiyyətlə, bu cür komplekslərin səciyyəvi xüsusiyyəti əvvəllər mövcud olmuş dəfn tikililərinin təmir, bərpa və yenidənqurma yolu ilə abadlaşdırılmasından və bərpa olunmuş məqbərəyə bitişik məscid, təkyə və digər xidmət otaqları tikilməsi yolu ilə dini kompleksin yaranmasından ibarətdir. Ərazimizdə XVII-XVIII əsrlərdə fəaliyyət göstərən sufi təriqətləri mənsubları mövcud imamzadələrdən yaşayış, ibadət və zikr yeri kimi istifadə etdiklərindən həmin dövrlərdə bölgədə

xanəgahlar inşa edilməmişdir. Memarlıq kompleksi 2004-cü ildə əsaslı şəkildə təmir olunaraq yenidən bərpa edilmişdir.

**"İsmayılxan" hamamı**



Naxçıvan şəhərində, Heydər Əliyev prospekti və Təbriz küçəsinin kəsişməsində, Dədə Qorqud meydanında tarixi-memarlıq abidəsidir. XVIII əsrin ortalarında Şərq memarlıq üslubunda inşa edilən bina giriş, xidmət zalı, çarhovuzlu çimərlik, xəzinə və ocaqxanadan ibarətdir. Ümumi sahəsi 526 *m2*-dir. Hamam planda düzbucaqlı formadadır. Bina 20x20x5 *sm* ölçüdə bişmiş kərpiclə inşa edilmişdir. Hamama giriş çatmatağlı portaldandır. Portalın eksteryeri kaşılarla bəzədilmişdir. Hamamın daxilinə geniş vestübüldən, soyunma zalına isə dar keçiddən daxil olmaq mümkündür. Soyunma zalı səkkizbucaqlı formadadır. Zalın divarları boyunca 6 ədəd dərin taxça yerləşdirilmişdir. Yuyunma zalının iki keçidi var. Keçidlərdən biri digər otağa açılır. Zalın mərkəzində 2x2 m ölçüdə çarhovuz inşa edilmişdir. 108 *m2* sahəsi olan zalın tavanı sferik günbəzlə örtülmüşdür. Hamam zalların divarlarına

yerləşdirilmiş kiçik pəncərələr və kümbəzin üstündəki bacalarla işıqlandırılır.
Hamamın xəzinəsi binanın qərbində, yuyunma zalına bitişik yerləşdirilmişdir. Xəzinədən açılan gözlükdən su götürülməsi üçün istifadə olunmuşdur. Hamamın su təchizatı kəhriz vasitəsilə ödənilmişdir. Xəzinənin altındakı ocaq hamamın isidilməsində əsas rol oynamışdır. Otaqlara istilik yeraltı kanallar vasitəsilə verilmişdir. Hamam Naxçıvan xanlarından biri olan İsmayıl xanın adı ilə bağlıdır. Hazırda əsaslı təmir və bərpa edilmişdir. Tarix-memarlıq abidəsi kimi dövlət tərəfindən qorunur.

## Köhnəqala

Köhnəqala Naxçıvan şəhərinin cənub-şərqində arxeoloji abidədir. Elmi ədəbiyyatda Yəzdəgird qalası, xalq arasında Köhnəqala, Torpaqqala adları ilə tanınır. Qalanın tikilmə tarixi dəqiq məlum deyil. 1957-1959-cu illərdə qalanın ərazisində aparılan tədqiqatlar zamanı zəngin arxeoloji materiallar, xüsusilə, saxsı qab fraqmentləri, daş gürzülər aşkar olunmuşdur. Arxeoloji tədqiqatlardan belə daş gürzülərin Tunc dövründə (e.ə.3-2-ci minilliklər) Duz mədənlərində istifadə olunduğu məlumdur. Qalanın III Sasani hökmdarı Yəzdəgirdin (632-51/52) tərəfindən inşa olunduğu ehtimal olunur. Türk səyyahı Ö.Çələbinin verdiyi məlumata görə, monqollar qalanı dağıtmışlar. Həmin qalanı sonralar Naxçıvanda olmuş Şarden və Frehanqdaxatırladırlar.



Qala XVIII əsrədək fəaliyyətdə olmuşdur. 1827-ci il planında bu qala sxematik qeyd olunmuşdur. Plana əsasən qala iki hissədən - kiçik qala (Narınqala) və böyük qaladan ibarətdir. Böyükqala Narınqalaya nisbətən daha çox dağıntıya məruz qalmışdır. Böyükqalanın düzbucaqlı formada (185x400 *m)* olan ərazisi 7400 $m^2$-dir. Narınqalaya nisbətən sonralar inşa və ya bərpa edildiyi güman edilən bu qalanın salamat qalmış, döyməgil və çınqıl qatışığından hörülmüş divarları, kvadrat formalı (19x19x5 sm) çəhrayı və sarı rəngdə bişmiş kərpicdən tikilmiş bina qalıqları tikilinin orta əsrlərə aid olduğunu sübut edir. Böyükqala yerləşdiyi təpənin relyefinə uyğun olaraq şimal-şərq və şimal-qərb tərəfdən nisbətən düz, cənub tərəfdən isə ziq-zaq şəklində inşa edilmişdir. Ziqzaqların çöl tərəfə çıxan kəsişmələri diametri 5,7 *m.*-dən 9 *m.*-dək dəyişən konusvari bürclərlə tamamlanmışdır. Böyükqalanın salamat qalmış divarlarının eni 1 *m.,* hündürlüyü isə bəzi yerlərdə 5 m.-ə çatır. Ayrıca onu da qeyd edək ki, qalanın qərb küncündə Nuhun türbəsi və digər tikintilərin qalıqları qalmaqdadır. Qalanın kvadrat formada (150x150 m)olan Narınqala hissəsində hazırda binaların izləri

qalmaqdadır. Narınqalanın çaydaşı əlavə etməklə döyməgildən hörülmüş divarlarının salamat qalmış hissələrinin qalınlığı 3,5 *m.*-dən 4 *m.-ə* çatır. Narınqala diametri, əsasən, 10 *m* olan dairəvi qüllələrə malikdir. Güman edildiyinə görə, Narınqalanın darvazası onun qərb küncündəki qüllə ilə yanaşı olmuşdur. Narınqalanı əhatə edən divarlar qalanın qərb hissəsində salamat qalmışdır. Şimal-şərq səmtindəki əksər hallarda yuxarıya doğru getdikcə nazilən dairəvi qüllələr qismən salamat halda zamanımızadək gəlib çatmışdır. Narınqalanın cənub-qərbdə 300 nəfərin gizlənə biləcəyi yeraltı sığınacaq-mağara var. Onun havalandırılması və işıqlandırılması üçün yuxarıdan oyuq açılmışdır. Mağaradan qalanın şərqinə tərəf gedən gizli yol, çox güman ki, Naxçıvançaya çıxır. Narınqalanın altından keçən kəhrizin iki quyusu qalanın içərisində yerləşir. Quyulardan biri mağaranın içərisindədir. Qalanın özünəməxsus səciyyəvi xüsusiyyətlərindən biri də qalanın Böyükqala və əsas Narınqala hissələri arasında eni 22,5 *m* olan dar dəhliz formasında həll edilmiş çıxış yolunun - "tələ"nin təşkilindən ibarətdir. Öz qeyri-adiliyi ilə qalanın xeyli dağıdılmasına baxmayaraq, salamat qalmış qala divarlarının və bürclərinin hissələri diqqəti cəlb edir.

## Qarabağlar türbəsi

Orta əsrlərə aid Azərbaycan memarlıq abidəsi olan Qarabağlar türbəsi Kəngərli rayonunun Qarabağlar kəndindədir. Türbə memarlıq kompleksinə daxildir. Memarlıq kompleksinə daxil olan türbədən başqa burada qoşa minarə və onların arasında yerləşən dini bina qalıqları var. Qoşa minarənin XII əsrin sonu – XIII əsrin əvvəllərində tikildiyi ehtimal olunur. Minarələri bir-birinə bağlayan baştağ isə XIV əsrə aiddir. Baştağın üzərində Elxani hökmdarı Hülaku xanın arvadı Quti xatunun adı yazıldığından, onun Quti xatunun şərəfinə tikildiyi güman edilir. 1928-ci ildə "Naxçıvan Tədqiq və Tətəbbö Cəmiyyəti"nin elmi katibi M. Mirheydərzadə qoşa minarəli baştağın kitabəsində

ərəb dilində bu sözlərin yazıldığını müəyyən etmişdir: "Allahın bunişanəsitürkmanQutixatındır".



Sərdabə və yerüstü hissədən ibarət Qarabağlar türbəsində qülləvarı türbələrin əsas xüsusiyyətləri əks olunmuşdur. Daş kürsülük üzərində dəstə şəklində birləşən 12 yarımsilindrik çıxıntı Qarabağlar türbəsinin yerüstü kompozisiyasını əmələ gətirir. Çıxıntılar divarın ümumi həcmini azaltmaqla yanaşı, türbəyə qala əzəməti verir. Türbənin 12 bucaqlı yeraltı sərdabəsinin divarları daşdan, günbəzləri isə kərpicdən hörülmüşdür. Qarabağlar türbəsinin səthi qırmızı və firuzəyi kaşılı kərpiclə örtülmüş həndəsi ornamenti xatırladan kitabələrlə bəzədilmişdir. Kitabələrin mətni şaquli qoyulmuş firuzeyi kaşılı kərpiclərdən və üfüqi düzülmüş kaşısız qırmızı kərpiclərdən tərtib olunmuş və kərpic vasitəsilə düzəldilən dəfələrlə təkrarlanan rombların içərisində yazılan "lə iləhə illəllah Məhəmmədən Rəsulallah" (Allahdan başqa Allah yoxdur,

Məhəmməd (s.ə.v.) onun rəsuludur!) kəlamlarından ibarətdir. Bu isə müəyyən qədər 1322-ci il Bərdə türbəsinin ornamentli kitabəsini xatırladır. Türbənin yuxarısındakı kitabə qurşağı nəsx xətti ilə işlənmişdir. Yerliyi göy kaşıdan olan kitabə ağ hərflərlə yazılmışdır. Qarabağlar türbəsinin kompozisiya xüsusiyyəti 4 baştağlı olmasıdır. Bu baştağlar şimal, cənub, qərb və şərq istiqamətlərində yerləşərək türbəyə 4 fasadlı görkəm verir. Baştağların səthi kaşı ilə örtülmüş, həndəsi və nəbati naxışlarla bəzədilmişdir. Bunlardan ən maraqlısı şimal tərəfdəki əsas baştağdır. Qarabağlar türbəsinin konus şəklində olmuş yuxarı günbəzi və müvafiq kitabələri dağıldığından türbənin tarixini dəqiq təyin etmək mümkün deyildir. Lakin bütün tədqiqatlar türbənin XIV əsrin əvvəllərində tikildiyini göstərir. Qarabağlar türbəsi ilə Bərdə türbəsinin oxşarlığına və hər ikisinin XIV əsrin əvvəllərində tikilməsinə əsasən bu abidələrin eyni memarlıq məktəbinə aid olduğu, hətta Naxçıvan memarlıq məktəbinin görkəmli nümayəndəsi, Bərdə türbəsinin müəllifi Əhməd Əyyub oğlu Hafiz Naxçıvani tərəfindən inşa edildiyi ehtimal edilir.

**Qazançı körpüsü**



Qazançı Körpüsü Culfa rayonunun Qazançı kəndinin cənub tərəfində, Əlincəçay üzərində inşa edilmiş tarixi-memarlıq abidəsidir. Körpü xalq arasında "Qozbel körpü" adı ilə də məşhurdur. Körpü XVI-XVII əsrlərdə Şərq memarlıq üslubunda tikilmişdir. Böyük İpək yoluna xidmət edən bu körpü vasitəsi ilə vaxtilə Qazançı kəndindən şərq istiqamətində uzanan və Ordubad ərazisində əsas yola birləşən karvan yolları keçmişdir. Körpü nisbətən yaxşı qalsa da, nəqliyyat üçün yararsızdır. Bununla belə o, Azərbaycanın biraşırımlı körpülərinin ən yaxşı nümunəsi sayılır. Körpünün eni 3,55 m, uzunluğu 10,85 *m,* hündürlüyü 8,8 *m*-dir. Körpü azca yonulmuş çapma daşlardan tikilmişdir. Tağların haşiyə və arxivoltu təmiz yonulmuş qumdaşındandır. Bunun sayəsində tağların kənarı körpü divarının yonulmamış səthindən fərqlənərək onun konstruksiyasını nəzərə çatdırır.

## Qeysəriyyə

Qeysəriyyə Ordubad şəhərində XVII əsrə aid tarixi memarlıq abidəsidir. Şəhərin mərkəzində yerləşir. Ümumi sahəsi 540 $m^2$-dir. Abidə 10x10 *m* olan mərkəzi səkkizbucaqlı zaldan və onun üzərini qapayan dairəvi günbəzdən, günbəzi künclərdə saxlayan mürəkkəb quruluşlu dörd ədəd dayaqdan və dayaqlarla kənar divar taxçaları arasında yerləşən keçidlərdən (eni 3,4 m) ibarətdir. Dayağın divarlarındakı taxçaların ölçüləri 1,4x1,45x2,2mdir.



Dayaq taxçalarından fərqli olaraq kənar divar taxçaları çatmatağ konstruksiyalı olub, ölçüsü 3,4x1,37x3 m-dir. Keçidlərin tavanı 16 ədəd kiçik günbəzlərlə qapanıb. Abidə bişmiş kərpicdən inşa olunmuş, divarının qalınlığı 80 sm-dir. Abidənin mərkəzi, günbəzi də daxil olmaqla, ümumi hündürlüyü 8,5 *m*-dir. Qeysəriyyə sözunun mənası keçmiş zamanlarda şahlara məxsus daş-qaş, ləl-cəvahirat satılması məqsədilə tikilmiş örtülü Şərq bazarı deməkdir. Belə tikililərə dünyanın 3 yerində rast gəlmək olar: Səmərqənd, Təbriz və Ordubad şəhərində. Hazırda ən görkəmlisi və abadı Ordubaddakıdır. Sonrakı dövrlərdə bu abidədən "Zorxana" kimi istifadə edilmişdir. Belə ki, zalının döşəməsi nisbətən binanın döşəməsindən aşağı olduğu üçün döşək əvəzinə dağlardan yığılmış gəvən kollarını buraya doldurub üstünə narın torpaq tökərmişlər. İrandan, Türkiyədən, Həmədandan və başqa yerlərdən gələn pəhləvanlar burada öz güclərini sınayarmışlar. Kim qalib gəlirdisə, hücrələrdə əyləşən xandan mükafat kimi bir kisə qızıl alırmış. XIX əsrin ortalarına yaxın Ordubadda yaradılmış "Əncüməni-şüəra" ədəbi məclisinin üzvləri (yaradıcısı fars və ərəb dillərini gözəl bilən, həcv və satirik şeirlər yazan, lakin, təəssüf ki, əsərləri bizim dövrümüzə gəlib çatmayan Ordubadlı Kərbalayı Molla Əhməd

adlı bir nəfər olmuşdur) Hacıağa Fəqir Ordubadi, Məhəmməd Tağı Sidqi, Qüdsi Vənəndi, Aşıq Abbas Dəhri, Usta Zeynal Nəqqaş, Hacı Əhməd Bikəs və başqaları bu binaya yığışıb öz yazdıqları əsərləri oxuyaraq kimin güclü yazdığını bəyan edərmişlər. Qeysəriyyə binası çar Rusiyasının hakimiyyəti dövründə üçtürləngəli feldşer Qasımın və pinəçi İbrahimin babaları və dayıları tərəfindən qızıl pulla alınaraq ipək sarıyan sexə çevrilmişdir. Sovet hakimiyyəti dövründə binanın bir tərəfi mağaza və anbar, digər tərəfi isə aşxana kimi istifadə edilmişdir. XX əsrin axırlarında, 1978-ci ildə ordubadlı memar Zakir Haşım oğlu Babayev tərəfindən abidə yenidən bərpa edilmişdir. Qeysəriyyə binası 1981-ci ildən Ordubad rayon Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir.

## Miranşah piri



Miranşah piri Babək rayonunun Qaraqala kəndindən şərqdə, hündür təpənin ətəyində yerləşir. Pir vaxtilə qayanın təbii oyuğunda olmuş və daş inancı ilə bağlı olmuşdur. Pirin içərisi düzgün olmayan dördbucaqlı formaya malikdir. Onun içərisində müsəlman adəti ilə dəfn aparılmış iki qəbir vardır. Baş daşlarında yazı yoxdur. Hazırda pir bərpa olunmuş və onun üzərində müsəlman məscidlərinə bənzəyən monumental abidə tikilmişdir. Pirin içərisi sütunlu olub, əsasən, iki hissəyə bölünmüşdür. Pirin silindrik formalı iki minarəsi və günbəzi aypara təsvirləri ilə tamamlanmışdır. Pirin fasadında iki qapısı və üç pəncərəsi vardır. Onlar yarımdairəvi tağlarla tamamlanmışdır. Azərbaycan xalqının qədim inancları və mifoloji görüşləri Miranşah pirini e.ə. III-II minilliklərə aid etməyə imkan verir.

## Möminə Xatun türbəsi

Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlığı incilərindən biri olan Möminə Xatun türbəsi 1186-cı ildə Naxçıvan şəhərinin qərb hissəsində tikilmişdir Memarı Əcəmi Əbubəkr oğlu Naxçıvanidir. Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldənizarvadı Möminə Xatunun qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582-ci ilin məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Elin yaddaşında "Atabəy günbəzi" adı ilə qalmışdır. Abidənin baş tağında kufi xətti ilə bu sözlər həkk olunmuşdur. "Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar".



Ümumi hündürlüyü 34 molmuş, sonralar 8 m hündürlüyündə xarici örtüyü dağılmışdır. Türbə yeraltı (sərdabə) və yerüstü hissələrdən ibarətdir. Sərdabə hissəsi planda 10 bucaqlıdır. Bəzi tədqiqatçılara görə, sərdabədə Atabəylər dövlətinin başçısı Şəmsəddin Eldəniz, onun arvadı Möminə xatun və oğlu Məhəmməd Cahan Pəhləvan dəfn olunmuşdur. Sərdabədə dəfn olunanların məzarlarının başdaşıları vaxtilə oğurlanıb aparılmışdır. Sərdabə orijinal quruluşlu olub, bədii baxımdan zəngin tərtibata malikdir. Mərkəzdə yerləşmiş sütundan onbucaqlının hər küncünə doğru bir tağ salınmışdır.Türbə sərdabəsindəki bu quruluş sonralar Qərbdə, qotika memarlığında tətbiq edilmişdir. Türbənin yerüstü hissəsi

xaricdən 10 guşəli (bütün tərəfləri kufi kitabələrlə haşiyələnmişdir), daxildən isə dairəvidir. Türbə günbəzinin daxilində xəlifələrin adı yazılmış dörd dairəvi medalyon var. Bişmiş kərpicdən tikilmiş Möminə Xatun Türbəsinin bucaqları çıxıntı şəklində, səthləri isə batıq formada həll edilmişdir. Türbənin bucaqlarındakı çıxıntılar kufi xətti ilə işlənmiş kitabələrlə örtülmüşdür. Bu kitabələrin uzunluğu 500 m-ə çatır. Türbə əvvəlki dövrlərə nisbətən mürəkkəb quruluşlu həndəsi ornamentlərlə kompozisiyaya daxil edilmiş firuzəyi kaşılarla daha da zənginləşdirilmişdir. Türbənin qərb hissəsi işlənmə xüsusiyyətinə görə fərqlənir. Burada səth iki yerə bölünmüş, aşağı hissəsində giriş qapısı baştağ şəklində həll edilmiş, yuxarı hissəsində isə ornamental bəzəklər verilmişdir. Memarın adını və abidənin inşa tarixini göstərən kitabələr baş tağdan yuxarıda həkk edilmişdir. Türbənin sadə quruluşlu daxili səthi gəc ilə suvanmış, günbəzin iç tərəfinə 4 medalyondan ibarət bəzək vurulmuşdur. Kompozisiyaya, yetkinliyə, ayrıntılarının incə, zərif işlənməsinə və memarlıq həllinə görə türbə orta əsrlər memarlıq sənətinin şah əsərlərindən sayılır. Məşhur incəsənət tarixçisi, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü M.V. Alpatov türbə haqqında yazır: "XII əsr Azərbaycan ustalarının Naxçıvanda yaratdığı Möminə xatın türbəsi nadir gözəllik və zəriflik abidəsidir. Möminə xatın türbəsi Şərqin ən gözəl klassik əsərləri-Firdovsinin "Şahnamə"si və Nizaminin "Leyli və Məcnun"u kimi əbədidir". Alpatovun fikrincə, o dövrün Orta Avropa memarlığında da belə gözəl abidəyə rast gəlmək olmur. Abidə əzəmətli memarlıq zənginliyi ilə yanaşı, Azərbaycanın qədim tarixini, möhtəşəm dövlətçiliyini, yüksək səviyyəli mədəniyyətini, böyük memarlıq məktəbinə malik olduğunu göstərir.

19-cu əsrə aid rəsm əsərlərindən və fotoşəkillərdən görünür ki, Möminə Xatun türbəsinin yanında monumental tikililər, o cümlədən, Came məscidi olmuşdur.

**Naxçıvan Buzxanası**



Naxçıvan buzxanası Naxçıvan şəhərində, İmamzadə kompleksinin yaxınlığında memarlıq abidəsidir. Azərbaycan Respublikasında ən böyük buzxanalardan biridir Planda düzbucaqlı formada olan buzxananın uzunluğu 20 m, eni 9 m, indiki halda hündürlüyü 9,6 m-dir. Yüksək texniki səviyyədə kərpicdən qurulmuş örtük konstruksiyasının mükəmməl həlli, naturada tikilməsi, bina örtüyünün uzununa, yüngül və dinamik konstruksiya sxemi tərzində yaradılması Naxçıvan buzxanasının səciyyəvi cəhətlərindəndir. Təxminən hər 3 m-dən bir qurulan çatmavari tağlararası boşluq çatma tağbəndlə örtülmüşdür. Kərpic hörgü cərgələri yükdaşıyan tağlara nisbətən şaquli vəziyyətdə yerləşdirilmişdir. Binanın örtük hissəsinin dağılmasına baxmayaraq, kərpic hörüklərindən görünür ki, tağların yuxarı hissəsində tağbəndlərin konstruksiyası dəyişir və çox güman ki, balaca tağbəndlərlə tamamlanır. Bu balaca tağbəndlər binanın əsas oxu boyu yerləşdirilmişdir. Azərbaycan ərazisində buna oxşar buzxana Ordubad şəhərində vardır.

Naxçıvan buzxanasının yüksək memarlıq həlli bu abidənin Naxçıvan memarlıq məktəbinin inkişafı dövründə (XII-XIV əsrlər) tikildiyini göstərir.

## Nehrəm İmamzadəsi



Babək rayonunun Nehrəm kəndində XVIII əsrə aid memarlıq abidəsidir. Bir çox dəyişikliklərdən, təmir və bərpa işlərindən sonra dövrümüzədək qalmışdır. Planının kvadrat formasında olması, divarlarındakı oyuqlar və mərkəzi otağın günbəzlə örtülməsi abidənin ilk məscid tiplərinə aidliyini göstərir. İndi də dəfn mərasimləri keçirilən qəbiristanlığın mərkəzində yerləşən Nehrəm imamzadəsi türbə, məscid, təkyə və s. yardımçı binalardan ibarət böyük kompleksdir. Kompleksin özəyini təşkil edən türbənin içərisində ziyarət obyekti olan bir qəbir var. Qəbrin üstü sənduqə formasında olub gəclə örtülmüş, üzərinə qara örtük salınmışdır. Zəvvarlar qəbri ziyarət edir, nəzir verir,

qurban kəsirlər. Qəbrin üzərində onun kimə aid olmasını bildirən kitabə yoxdur. Əhali arasında yayılan rəvayətə görə qəbirdə şiələrin yeddinci imamı Museyi-Kazımın oğlu Seyid Əqil dəfn olunmuşdur. Türbənin daxilində, divarlarda, mehrabın cənub, baş və sağ tərəfində günbəzvarı çərçivələrdə dini xarakterli kəlamlar verilir və türbə daxilindəki xəttatlıq işlərinin Mehdi adlı sənətkara məxsus olduğu göstərilir. Kitabələr içərisində diqqəti cəlb edən "Möcüzələr sahibi Əlini çağır!" duası Bəktaşi dərvişlərinə məxsusdur. Bu dua göstərir ki, Nehrəm İmamzadəsi bir müddət xanəgah vəzifəsini yerinə yetirmiş, burada Bəktaşi dərvişləri yaşayıb fəaliyyət göstərmişdir. Kompleks ətraflı tədqiq edilməmişdir

## Nuh Türbəsi

Naxçıvan şəhərinin cənub tərəfində Köhnəqala adlanan ərazidə VIII-XII əsrə aid memarlıq abidəsidir. K. A. Nikitinin "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsində Həzrəti Nuh peyğəmbərin buradakı məzarı və türbəsi aşağıdakı kimi təsvir olunmuşdur: "Nuhun qəbri Naxçıvan şəhərinin cənub tərəfində, qədim qalanın qalıqlarının yaxınlığında yerləşir. Məzarın hazırkı görkəmi 8-ci yüzillikdə bərpa edilmişdir. İndiki görkəmdə məzar yerdən qalxan, çox da böyük olmayan türbəni xatırladır. Əvvəlcə burada məbəd olmuş, sonra uçub 2,5 m. dağılmışdır. Hazırkı türbə keçmiş məbədin aşağı mərtəbəsinin qalıqlarından ibarətdir. Məbədin pilləkənlərlə aşağı düşmək tələb olunan interyeri dairəvi, ortadan daş dirəklə möhkəmləndirilmiş sərdabə tipindədir. Rəvayətə görə həmin dirəyin altın



da Nuhun cənazəsi yerləşir. Sərdabədə obrazların və bəzəklərintəsviryoxdur. Sərdabənin divarları ağardılmış, səyyahların və ibadətə gələn zəvvarların müxtəlif dillərdə olan adları ilə yazılıb doldurulmuşdur". V. M. Sısoyev əsərində "Nuhun türbəsi" haqqında məlumat verərkən sərdabənin tərəfləri 2,5 *m* olan səkkizguşəli prizma şəklində olduğunu qeyd etmişdir. Azərbaycan realist rəssamlıq sənətinin banisi Bəhruz Kəngərli (1892-1922) XX əsrin əvvəllərində yağlı boya ilə Naxçıvan şəhərindəki Nuhun türbəsinin naturadan şəklini çəkmişdir. Əsərdə Nuh peyğəmbərin türbəsi ilə yanaşı türbənin yerləşdiyi ərazi də təsvir edilmişdir. Naxçıvanda Nuhun qəbri ilə bağlı xeyli əfsanələr vardır. Əfsanəyə görə dünya tufanı zamanı Həzrəti Nuh peyğəmbərin gəmisi Naxçıvan ərazisindəki İlandağa toxunmuş, Qapıcıq zirvəsinə yaxın dağ ətəyində lövbər salmışdır. Həmin yerin Gəmiqaya adlandırılması, bu ərazidə

Nəbi yurdu adlanan yaylaq yerinin və yaxınlıqda Nuhdaban adlı qədim yaşayış məskəninin mövcud olması əfsanədə öz əksini tapan mətləblərin gerçəkliyə uyğunluğunu ehtimal etməyə əsas verir. Həzrəti Nuh peyğəmbərlə bağlı rəvayətlərdə hətta onun özünün və bacısının məzarlarının Naxçıvan şəhərində olması barədə məlumatlar öz əksini tapmışdır. Nuhun türbəsinin Naxçıvanda olması haqqında İ. Şopen, Dyubua-de Monpere, K. A. Nikitin, V. M. Sısoyev və digər tədqiqatçılar məlumat vermişlər. XIX əsrin 80 illərində Naxçıvan şəhərində yaşayıb, pedoqoji fəaliyyətlə məşğul olmuş rus maarifçisi K.A. Nikitin (1832-1894) yerli əhalinin köməyi ilə Nuh peyğəmbərin bu qədim diyarla əlaqəsinə dair rəvayətləri toplayıb yazıya almış və onun buradakı məzarının yerini müəyyənləşdirmişdir. Nikitin 1882-ci ildə "Qafqaz ölkəsi və tayfalarının təsviri üçün materiallar" məcmuəsində çap olunmuş "Naxçıvan şəhəri və Naxçıvan qəzası" adlı məqaləsində bu barədə müfəssəl məlumatlar vermişdir: "...Bundan sonra Nuh Naxçıvanda yaşamış və burada dəfn olunmuşdur. Hələ indi də onun buradakı məzarı və türbəsinin yerini göstərirlər. Hətta Nuhun Naxçıvandakı duz karxanalarındakı fəaliyyəti xalq arasında dolaşan rəvayətlərdə indi də saxlanılmaqdadır. Guya ki, o, burada ilk çalışanlardan olmuşdur. ...O, öz ailəsi ilə burada qərar tutmuş və gələcək şəhərin əsasını qoymuşdur. Naxçıvan şəhərinin ilk məskunlaşma yeri mənasını bildirən adı da buradan meydana gəlmişdir... Rəvayətlərə görə insan nəsli buradan yayılmışdır." Nuhun gəmisinin qalıqlarının Gəmiqayada olması barədə ehtimallar və rəvayətlər indi də yaşamaqdadır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun "Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında" 2006-cı il 28 iyun tarixli sərəncamı əsasında 2007-2008-ci illərdə qədim abidə tarixi mənbələr nəzərə alınmaqla yenidən bərpa olunmuş, ərazidə geniş abadlıq və yenidənqurma işləri aparılmışdır.

## Ordubad Came məscidi

Orta əsrlərə aid memarlıq abidəsidir Ordubad şəhərinin mərkəzi meydanında ən hündür yerdə ucaldılıb. Məscid möhtəşəmliyi ilə diqqəti cəlb edir. Məscidin memarlıq görkəmi XVII-XVIII əsrlərə aid abidələrin başlıca cəhətlərini özündə daşımaqdadır. Cümə məscidinin şərq qapısı üzərindəki daş lövhədə I Şah Abbasın nəsx xətti ilə farsca beş sətirlik fərmanı həkk



edilmişd1604-cü ilə aid olan bu fərmanda deyilir**:** "**...**Ordubad qəsəbəsinin bütün əhalisinin ...Şah Abbas Bahadur xanın xanədanına nisbət bəslədikləri məhəbbət və fədakarlığın həqiqəti aşkar edildiyindən və zatən şiə olduqları üçün Azərbaycan vilayəti düşmənlərin əlinə keçdiyi zaman onlara cürbəcür zülm və sitəm rəva görüldüyünə, bir çoxları öldürülüb və əsir alındıqlarına görə, bu camaatın ümumiyyətlə fədakarlığı, xüsusilə yüksək Nəsiriyyə - Tusiyyə silsiləsinin fədakarlığı müqabilində Şahın müzayiqəsiz mərhəmətinin bir qisməti onlara

bəxş edildi. Qeyd olunan vilayət yüksək qalibiyyətli dövlətin hakimiyyətinə keçdiyi tarixdən adı çəkilən qəsəbənin malucəhat və vücuhatını, sənətkar mallarından, bağlardan, əkin yerlərindən, dəyirmanlardan alınan vergiləri, ixracat, itlataq, nüzul, əvariz, qonalqa mükəlləfiyyətlərini Allah yolunda sədəqə olaraq ləğv etdi və Allahın razılığını qazanmaq üçün maaf etdi və Azərbaycan boniçəsində onu müstəsna buyurdu ki, onu xəzinəyə veriləcək itlaqatından çıxsın..." Məscidin plan quruluşu, bəzi elementləri və bədii tərtibatı onun ilkin əsasının daha qədim olduğunu göstərir. XVII əsrdə isə məscidin əsaslı şəkildə bərpa edildiyi güman olunur. Məscidin içəri divarlarındakı həndəsi formalı ornamentlər Naxçıvanın qədim abidələrindəki rəsmləri xatırladır. Bəzi mənbələrə görə, 1901-1902-cü illərdə məsciddə təmir işləri aparılarkən tapılmış bir kərpicdəki yazıdan onun əsasının hicri 111-ci (miladi 729-ci il) ildə qoyulduğu aydın olur. Tədqiqatçılar Cümə məscidinin indiki görünüşünün sonradan edilən əlavələr nəticəsində yarandığını qeyd edirlər. Hazırda məscidin şimal-şərqində mədrəsə, qərbində isə zorxana binaları yerləşir. Məscid və ətraf binalar 1987-ci ildə əsaslı surətdə bərpa olunmuşdur.

## Yusif Küseyir oğlu türbəsi

Naxçıvan şəhərində ən qədim memarlıq abidələrindən biridir. Şeyx Məhəmməd Xiyabani küçəsində yerləşən bu abidə xalq arasında Atababa türbəsi və ya Atababa günbəzi də adlanır. 8 əsrdən çox yaşı olan türbə 20-ci əsrin ortalarında bərpa edilmişdir. Bərpa işləri nəticəsində türbənin dağılmış hissələri düzəldilmiş,mühəndisqurğularımöhkəmləndirilmişdir.



Abidə yeraltı sərdabədən və yerüstü qülləvarı hissədən ibarətdir. Planda abidənin yerüstü hissəsi daxildən və xaricdən səkkizbucaqlı şəkildədir. Divarlarının qalınlığı 80 sm, 20 x 20 x 4,5 sm bişmiş kərpiclə inşa edilmişdir. Türbənin səkkizbucaqlı prizmatik gövdəsi xaricdən piramidaşəkilli, daxildən isə tavan çatma tağ şəkilli sferik günbəzlə örtülmüşdür. Türbədə biz ikiqat günbəz quruluşunun ən görkəmli, bizim zəmanəmizə qədər əvvəlki şəklini mühafizə etmiş və indiyə qədər gəlib çatmış yeganə bir nümunəsini görürük. Yüksək mühəndis həllinin nəticəsidir ki, Yusif Küseyir oğlu türbəsi Azərbaycanın qülləvari türbələri içərisində üst piramidal örtüyü 800 ildən artıq bir

müddətdə salamat qalan yeganə abidədir. Türbənin üzərindəki kitabə bildirir ki, "Bu türbə xacə, sanlı rəis, dinin zəkası, islamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunundur". Həmin kitabə türbənin hicri 557-ci ilin şəvval ayı (miladi 1162) tikildiyini də bildirir. Əsas fasaddan sol tərəfdəki kitabədə isə "Bənna Əcəmi Əbubəkir oğlu Naxçıvaninin əməlidir" şəklində türbənin memarının adı qeyd olunmuşdur. Türbənin səthlərindən yuxarı hissə qurşaq şəklində ayrılmış və burada kitabə yerləşdirilmişdir. Qurşaqda kufi xətlə Qurandan ayələr yazılmışdır. Türbənin yeraltı hissəsi sərdabə, yerüstü hissəsi isə xatirə qülləsindən ibarətdir. Səkkizüzlü türbənin çıxıntılı dayaqlar şəklində olan tilləri sadə hörgülü kərpicdən yaradılmışdır. Binanın qəfəsini təşkil edən bu qurğuların arasındakı sahələr (türbənin səthləri) həndəsi ornamentli tavalarla üzlənmiş, ayrı-ayrı səthlər müstəqil motivli naxışlarla işlənmişdir. Ornamentlər kiçik kərpiclərdən quraşdırılmış, gəc məhlulu ilə tava şəklində birləşdirilərək səthlərə bərkidilmişdir. Türbənin qərbə baxan səthi digər səthlərdən fərqli olaraq, giriş baştağı şəklində tərtib edilmişdir. Ornament bəzəkləri tikilinin memarlıq formaları ilə həmahəngdir. Sərdabə ilə yerüstü hissə arasındakı günbəz də çatma tağlıdır. Sərdabə günbəzinin ortasında binanı nəmişlikdən qorumaq üçün silindrik formada xüsusi hava-təmizləyici boşluq qoyulmuşdur. Sərdabəyə qərb tərəfdəki pilləkənlərlə enilir. Əsas fasaddakı giriş portalı çatma tağlı taxça, qapısı isə düzxətli tağ formasındadır. Yusif Küseyir oğlu türbəsinin həm əsas tikintisi, həm də bəzək hörgüsü bir materialla-keyfiyyətli bişmiş kərpiclə işlənmişdir. Bu da abidənin saya, aydın və təmiz həndəsi biçiminin bütövlüyünü gücləndirir, ona vahid, ifadəli, qırmızımtıl kolorit verir. Prizmatik gövdə, piramidal günbəz, üzlərin girinti-çıxıntıları, bol işıq-kölgə çalarları ilə bu koloriti zənginləşdirir. Kompozisiyasına, tektonik aydınlığına, hissələrinin mütənasibliyinə, mühəndis quruluşunun səviyyəsinə görə türbə yüksək bədii-memarlıq nümunəsidir.

**Zaviyə mədrəsə binası**

Zaviyə-mədrəsə binası Naxçıvan şəhəri Heydər Əliyev prospekti və Təbriz küçəsinin kəsişdiyi yerdə, Zaviyə məhəlləsində tarixi-memarlıq abidəsidir. Ərəbcə guşə, künc, bucaq mənasını verən zaviyə sufi təriqətlərinə mənsub məskənlərin adlarından biridir. Xanəgahlar kimi zaviyələrdə də ayrı-ayrı təriqətlərə mənsub dərvişlər yaşamış və ətraflarına müridlər toplayaraq öz ideyalarını yaymışlar. İslam dininin yarandığı ilk yüzilliklərdə xristian rahiblərinin hücrələrini, kiçik müsəlman məscidlərini və ya ibadətxanalarını da zaviyə adlandırırdılar. Məğrib ölkələrində zaviyə məsciddən, məktəbdən, övliya məqbərəsindən, mehmanxanadan ibarət dini binalar kompleksi kimi fəaliyyət göstərirdi. Sonralar Şimali Afrika övliyaları öz şagirdləri və ardıcılları ilə birlikdə yaşadıqları binaları da zaviyə və ya ribat adlandırmağa başladılar. Ümumiyyətlə, orta əsrlər zamanı zaviyə sufi qardaşlıqları ardıcıllarının məskənlərinin adlarından biri olmuşdur. Onlar həm də ayin və mədəni-maarif mərkəzləri sayılırdı. Orta əsrlərdə Naxçıvanda mövcud olan bəzi təriqət tərəfdarları məscidlərə getmir, özləri üçün ayrıca təkyələr, zaviyələr tikir, orada yaşayır və zikrlə məşğul olurdular. Hürufi təriqətçiləri belə zikr yerlərini xanəgah, bəktaşi və nəqşibəndilər isə zaviyə adlandırırdılar. Naxçıvan memarlıq məktəbinə aid edilən məscidin zahiri memarlıq siması, plan quruluşu və özünəməxsus kompozisiyası onun XVII-XVIII əsrlərin zəngin inşaatənənələrininməhsuluolduğunugöstərir.



XVII-XVIII əsrlərdə Azərbaycan memarlığında əvvəlki dövrün ənənələri ilə yanaşı yeni tikinti meylləri də özünü göstərirdi. İnşaat tiplərindəki bu dəyişiklik əsasən dini tələbatın daha geniş şəkildə ödənilməsi ilə əlaqədar idi. Zaviyə mədrəsəsinin binası ilk baxışdan düzbucaqlı formada görünsə də mürəkkəb memarlıq quruluşuna malikdir. Bina yerdən 1 *m* hündürlükdəki kürsülük üzərində yerləşdirilmişdir. Ümumi sahəsi 212 $m^2$-dir, divarların qalınlığı 0,9 - 1,5 *m* arasında dəyişir. Əsas qalınlıq 90 sm-dir. Bişmiş kərpic və əhəng məhlulu ilə inşa edilmişdir. Kərpiclər iki ölçüdədir. 20 x 20 x 5 *sm* olan sarı rəngli kərpiclərdən binanın əsas tikintisində istifadə olunmuşdur. XIX əsrin 2-ci yarısında məscidin əsaslı təmiri zamanı 26 x 13 x 5 *sm*-lik qırmızı rəngli kərpic-lərdən daha çox istifadə edilmişdir. Zaviyə-mədrəsə binası istər plan quruluşu, istərsə də ayrı-ayrı hissələrin formasına görə Naxçıvandakı digər dini binalardan tamamilə fərqlənir. Çox güman ki, XIX əsrin axırlarında aparılan təmir işləri zamanı yeni tikintilər və formalar əlavə olunduğundan binanın memarlıq quruluşu xeyli

dəyişdirilmiş, əvvəlki zamanların tikintisində istifadə olunan çatma tağlar və sferik gümbəzlər əvəzinə, XIX əsrin mürəkkəb xətli tağları və düz dam örtüyü ilə əvəz edilmişdir. Ona görə də binanın tikilmə tarixinin dəqiqləşdirilməsi çətindir. Binanın indiki interyer quruluşu böyük ibadət salonundan, ona bitişik vestibüldən, ikimərtəbəli üç yardımçı otaqdan və dolama pilləkənləri olan minarədən ibarətdir. Salonun və digər tikililərin sferik gümbəzləri dağıdıldığından, XIX əsrin sonlarında düz xətli örtüklə əvəz edilmişdir. Binaya üç tərəfdən: qərbdən və şimaldan bir, şərq tərəfdəki həyətdən isə üç giriş qapısı var. Əsas giriş qərbdəndir. Qərb tərəfdəki düz xətli portal eyvan şəklində qurulmuşdur. Eyvana mərmər pilləkənlərlə qalxılır. Giriş portaldakı qapıdan bir tərəfi üçbucaqlı formada olan vestibülə daxil olunur. Vestibülün sahəsi 19,8 $m^2$-dir. Vestibüldən sağda hündürlüyü 5,5 m, sahəsi 88 $m^2$olan hücrə tipli ibadət salonu yerləşir. Salona şərq tərəfdən də giriş var. Salonun şərq və qərb divarlarının hər birində 0,9 x 3,2 *m* ölçüdə üç ədəd şəbəkəli pəncərə qoyulmuşdur. İbadət salonunun mehrabı 1,7 x 5,15 x 5,5 *m* ölçüdə cənub divarda ayrıca bölmə şəklində yerləşdirilmişdir. Mehrabın çatma tağlı taxçası və digər bəzəkləri çoxsaylı təmir nəticəsində suvaqla doldurularaq düz səthə çevrilmişdir. Vestibüldən solda iki qapı var. Qapılardan biri minarənin dolama pilləkənlərinə, digəri isə yardımçı otaqlara açılır. Qadınlar üçün nəzərdə tutulmuş ikinci mərtəbədəki otaqlara taxta pilləkənlərlə qalxılır. Buradakı ibadət otağı ilə əsas salon arasında pəncərə var. Binanın əsas fasadı mərkəzdə yerləşdirilmiş eyvanlı portaldan, üç ədəd uzunsov şəbəkəli pəncərədən və çox da hündür olmayan minarədən ibarətdir. Əsas fasadla uzlaşmayan antamblement və tikintinin başını dövrələyən çatma tağ motivli parapet binaya sonradan əlavə edilmişdir. Antamblementdəki dörd düzbucaqlı sütun çıxıntıları və mərkəzdə yerləşdirilmiş dairəvi boşluqlar binanın fasadında tamamilə yad element kimi görünür. XX əsrdə binadan klub, pionerlər evi, dini idarə və s. məqsədlər üçün

istifadə olunmuşdur. 2007-ci ilədək Naxçıvan MR Qadınlar Məclisi burada yerləşmişdir. 2008-ci ildə əsaslı təmir və bərpa olunmuşdur.

## Naxçıvan xalçaları




















## Naxçıvan mətbəxi




Naxçıvan kətəsi Arzuman küftəsi Ordubad qayğanağı

  

Naxçıvanda çörəksiz süfrə təsəvvür etmək mümkün deyil. Elə buna görədir ki, çörəyin çeşidli növləri var: kağız kimi incə təndir lavaşı, qalın, dəstana, kömbə və s.

Sacda lavaş Çölmək pitisi Qozlu Ordubad dürməyi

  

Daş küftə Naxçıvan çöçəsi Umac aşı

  

Azərbaycanın zəngin və çeşidli mətbəxi, yüksək qonaqpərvərlik ənənələri vardır. Ta qədimdən ət və ərzaq məhsulları varlılıq əlaməti sayılıb. Süfrələr nə qədər zəngin bəzədilərsə, ilin o qədər bərəkətli, məhsuldar olacağına inanılırdı. Dünyada olan 11 iqlim qurşağından 7-nin muxtar respublikada olması, zəngin flora və fauna, coğrafi mövqe Naxçıvan mətbəxinin zəngin olmasına təsir edən amillərdir. Azərbaycan mətbəxinə məxsus yeməklərlə yanaşı, Naxçıvan mətbəxinin özünəməxsus yeməkləri də vardır. Naxçıvan mətbəxi öz zənginliyi, heyrətamiz dadı ilə qonşu xalqların mətbəxinə də təsir edib. Həm təbiəti, həm memarlıq abidələri ilə çox zəngin olan Naxçıvan mineral sular Sirab, Badamlı, Vayxır kimi mineral suların məskənidir. Naxçıvan mətbəxi mineral suları qədər zəngindir. Azərbaycanda, həmçinin Naxçıvanda çörəksiz süfrə təsəvvür etmək mümkün deyil. Elə buna görədir ki, **çörəyin kağız kimi incə təndir lavaşı, qalın, dəstana, kömbə** kimi çeşidli növləri var.

Naxçıvan mətbəxində parça **bozbaş, küftə bozbaş, çölmək pitisi, bozartma, çığırtma, dolma, kabab, xaş, əriştə, umac** və s. geniş rast gəlinir.

Burada yeməklərin şahı plov hesab edilir. Plovun əsas hissəsi düyüdür. Plovun «qarası» isə növbənöv olur və qoyun, mal, toyuq ətindən, çərəzdən (qoz, fındıq, şabalıd), meyvə qurularından (ərik, gavalı, alça və s.), göyərtilərdən və digər ərzaq məhsullarından istifadə etməklə hazırlanır.

Naxçıvan mətbəxi **əriştə aşı, umac aşı, buğda unu və düyü unundan hazırlanmış halvalar, xəşil, quymaq və digər xəmir xörəkləri** ilə də məşhurdur. Süd və süd məhsullarından hazırlanan **südaşı, bulama, qatıqaşı, qatıqlama, dovğa, ayranaşı, qurutaşı** və digər təamların Naxçıvan mətbəxində xüsusi yeri var. Azərbaycanda **kabablar** geniş yayılıb. Naxçıvanda **lülə kabab, tikə kabab, basdırma kabab, tava kabab, saciçi kimi kabab növlər**i də bişirilir. Kabab adətən qoyun və mal ətindən, həmçinin quş ətindən də çəkilir. Naxçıvanın göl və çaylarında müxtəlif növ balıqlar yaşayır və Naxçıvan mətbəxinə daxil olan balıq yeməkləri sırasında **balıq kababları, qızartmaları, balıq basdırması** xüsusilə məşhurdur. Naxçıvan mətbəxi yeməklə bərabər cürbəcür **şoraba və salatlar**, həmçinin **şərbət və meyvə şirələri** ilə zəngindir. Adətən yeməkdən sonra süfrəyə çayla bərabər müxtəlif **şirniyyat və mürəbbə çeşidləri** verilir. Naxçıvanın özünəməxsus şirniyyatlarından **Ordubad qayqanağı və paxlavası, şəkərbura, növbənöv kətələr, bükmələr və sair** geniş yayılıb. Naxçıvanın ekoloji təmiz havası, günəş şüasının bolluğu və digər amillərin təsiri nəticəsində bu torpağın yetirdiyi meyvə, tərəvəz və digər məhsullar öz dadı və keyfiyyəti ilə fərqlənirlər. Bu da öz növbəsində həmin məhsullardan hazırlanmış yeməklərin, şirniyyatların, şərbət və şirələrin dadlı və ləziz olmasına səbəb olur.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Kitablarda**

**Abuzərli N. İ**. Bəşərin beşiyi : Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunur. - Bakı : MBM, 2009. - 48 s.

**Araz M**. Naxçıvan albomu : poeziya. - Bakı : Elm və Təhsil, 2010. - 216 s.

**Aslanlı H**. Biləv : Təbiəti, toponimikası, tarixi, etnoqrafiyası. - Bakı : E.L. Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, 2008. - 460 s.

**Atilla İ.** Cavidi xatırlarkən : məqalələr və xatirələr. - Bakı : Zərdabi, 2012. - 592 s.

**Atnur İ. E.** Muxtariyyat ərəfəsində Naxçıvan. - Bakı : NDU-Qeyrət nəşriyyatı, 1999. - 442 s.

**Baxşəliyev V**. Gəmiqaya təsvirləri. - Bakı : Elm, 2003. - 168 s.

**Dilsuz**. Əlincə qalası. - Bakı : Beşik, 2008. - 14 s.

**Dilsuz**. Naxçıvan. - Bakı : Beşik, 2008. - 14 s.

**Əliyev Ə**. Əlincə yaddaşı. - Bakı : Elm və həyat, 2004. - 316 s.

**Əliyev F**. Naxçıvan xanlığı. - Bakı : Şərq-Qərb, 2007. - 120 s.

**Əliyeva H**. Naxçıvan necə döyüşdü, müdafiə olundu. - Bakı : Şirvannəşr, 2009. - 168 s.

**Kəmalə**. Əlixan məhəlləsi : bir ailənin tarixçəsi. - Bakı : MBM, 2010. - 208 s.

Naxçıvan Ensiklopediyası . - Bakı : [s. n.], 2002. - 594 s.

Naxçıvan sancağının müfəssəl dəftəri : 9 məhərrəm 1140 (27 avqust 1727). - Bakı : Elm, 2001. - 376 s.

**Rəhimli İ**. Naxçıvan teatrı : Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının 125 illik yaradıcılıq yolunun salnaməsi (1883-2008). - Bakı : Aspoliqraf, 2008. - 352 s.

**Seyidov A.** Ərəbyengicə = Араб Енгиджа = Arabyengija. - Bakı : Nurlan, 2009. - 160 s.

Ulu yurd yerlərimiz : nağıl. - Bakı : İdeal-Print, 2009. - 18 s.

**Ünüvar V.** (General). Naxçıvan: təlatüm və burulğanlar (1920-1921) : Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün anadan olmasının 125-ci ildönümünə. - Naxçıvan : Əcəmi, 2006. - 104 s.

**Zaman M**. Maxtalı : roman. - Bakı : Nərgiz, 2012. - 259 s.

**Zeynaloğlu S**. Tarixin qan yaddaşı : sənədli xatirə oçerk və povest. - Bakı : Respublika Xatirə Kitabı Redaksiyası, 2001. - 366 s.

**Zülfüqarlı M**. Sədərəyin mərd mübarizləri. - Bakı : [s. n.], 2004. - 127 s.

**Dövrü mətbuatda**

Naxçıvan Muxtar Respublikasının 100 illik yubleyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin **sərəncamı** (30 dekabr 2023-cü il) // Xalq qəzeti. - 2023. - 31 dekabr. - № 288. - S. 2.

**Abdullayeva N.** Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixində mühüm hadisədir // Palitra. - 2014. - 29 yanvar. - № 15. - S. 13.

**Ağalarlı M**. Cahanın Nəqşi - Naxçıvan səyyah və coğrafiyaşünasların gözü ilə... : Naxçıvan Muxtar Respublikası - 100 // Azərbaycan : qəzet. - 2024. - 29 fevral. - № 46. - S. 11.

**Ağalarov V**. Məğrurluq və yenilməzlik rəmzi - Naxçıvan qalaları // Xalq qəzeti. - 2016. - 27 iyul. - № 160. - S. 6.

Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası // Palitra. - 2017. - 1 dekabr. - № 220. - S. 2.

Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu şərəfli yol keçmişdir : Naxçıvan Muxtar Respublikası - 90 // Azərbaycan. - 2014. - 9 fevral . - № 28. - S. 5.

**Babaoğlu H.** Qədimdən qədim, yenidən yeni diyar - Naxçıvan // Yeni Azərbaycan. - 2017. - 9 iyun. - № 102. - S. 4-5.

**Bəylərli T.** Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında // Palitra. - 2016. - 11 oktyabr. - № 180. - S. 12.

**Camalov K.** Şərqin elm və mədəniyyət beşiyi // 525-ci qəzet. - 2024. - 27 fevral. - № 37. - S. 11.

**Əhmədov N**. Blokada şəraitində möhtəşəm quruculuq işləri... : Naxçıvan Muxtar Respublikası - 90. // Xalq qəzeti. - 2014. - 5 fevral. - № 24. - S. 3.

**Əlincəli S.** Şərqin qapısının seyrində iki böyük sənətkar // 525-ci qəzet. - 2024. - 24 fevral. - № 36. - S. 23.

**Əliyev T**. Şərqin qapısında düşmənə göz dağı olan diyar : Naxçıvan Muxtar Respublikası - 90 // Xalq qəzeti. - 2014. - 2 fevral. - № 22. - S. 5.

**Əsgərov B**. 100 illik şanlı tarix // Azərbaycan : qəzet. - 2024. - 9 fevral. - № 28. - S. 12.

**Əsgərov B.** Naxçıvan və tarixi missiya : Heydər Əliyev // Xalq qəzeti. - 2017. - 18 oktyabr. - № 228. - S. 2.

**Əzimova S**. Beş min ilin bir əsri // Azərbaycan : qəzet. - 2024. - 9 fevral. - № 28. - S. 13.

**Fərəcov M**. Nura boyanmış yurd yeri : Naxçıvan Muxtar Respublikasında Naxşınərgiz məntəqəsi // Xalq qəzeti. - 2016. - 11 dekabr. - № 275. - S. 10.

**Gözəlov P.** Naxçıvan xanlığının iki rəngli bayrağı // Səs. - 2016. - 16 mart. - № 49. - S. 12.

**Hacıyev İ.** Naxçıvan Muxtar Respublikasının yaradılması ölkəmizin həyatında mühüm hadisədir : Naxçıvan Muxtar Respublikası - 90 // İki sahil. - 2014. - 8 fevral. - № 23. - S. 5, 11.

**Hacıyev İ.** Naxçıvan qalaları // Qobustan. - 2017. - № 2. - S. 9-13.

**Həbibbəyli İ**. Nuhçıxandan - Naxçıvana: tarix və müasirlik : Naxçıvan Muxtar Respublikası - 90 // Azərbaycan. - 2014. - 7 fevral. - № 26. - S. 5.

**Hüseynova R**. Naxçıvan prespektivli inkişaf yolunda // Səs. - 2016. - 12 avqust. - № 145. - S. 7.

**İbrahimzadə F**. Naxçıvan zəngin tarixə malik olan Azərbaycanın bir hissəsidir : Naxçıvan Muxtar Respublikası - 90 // Kaspi. - 2014 - 28 yanvar. - № 14. - S. 15.

**İbrahimzadə F**. Qədim Naxçıvan: yaşayan və yaşadan tarix // Xalq qəzeti. - 2012. - 16 fevral. - № 37. - S. 5.

**İsmayılqızı X**. Şərqdən doğan Günəşə boylanan diyar : Naxçıvan Muxtar Respublikası - 100 // İki sahil. - 2024. - 3 fevral. - № 21. - S. 7.

**İsmayılqızı X.** Ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətində Naxçıvan dövrü : Naxçıvan Muxtar Respublikası - 90 // İki sahil. - 2014. - 11 fevral. - № 24. - S. 8.

**Kəlbizadə E**. Tarix: dünənin bu günə yadigarı, bu günün dünənə baxışı // Xalq qəzeti. - 2016. - 6 noyabr. - № 246. - S. 4.

**Kəngərli R**. Naxçıvan : Arzuların, xəyalların gerçəyə çevrildiyi məkan və ya bir ömür sədaqət borcu // İki sahil. - 2017. - 26 avqust. - № 154. - S. 21.

**Kəngərli R.** Naxçıvan İslam həmrəyliyinin güclənməsinə əvəzsiz töhfələr verəcək // Səs. - 2017. - 9 dekabr. - № 226. - S. 8-9.

**Kəngərli R.** Naxçıvan İslam mədəniyyətinin mərkəzi kimi // İki sahil. - 2017. - 27 oktyabr. - № 196. - S. 8.

Qarabağlar kompleksi // Savalan. - 2016. - 16-19 dekabr. - № 57. - S. 2.

**Qasımov C.** Naxçıvan Muxtar Respublikası : dövlətin iqtisadi siyasətində məşğulluq məsələsi // İki sahil. - 2016. - 6 yanvar. - № 3. - S. 21.

**Qasımov C**. Naxçıvan Muxtar Respublikası: bir əsrə sığmayan inkişaf : Muxtar respublikanın 90 illiyi tamam olur // Palitra. - 2014. - 8 fevral. - № 23. - S. 10.

**Quliyev C.** Naxçıvanın şərəfli tarixi // Azərbaycan : qəzet. - 2024. - 9 fevral. - № 28. - S. 13.

**Qurbanqızı Z**. Naxçıvan: doğma diyar : Muxtar Respublikanın yaradılmasından 98 il ötür // Respublika. - 2022. - 9 fevral. - № 29. - S. 7.

**Məhərrəmova C.** Muxtariyyət dövründə Naxçıvan toponimlərinin tədqiqi // 525-ci qəzet. - 2024. - 15 mart. - № 49. - S. 14.

**Məmmədov C**. Heydər Əliyevin milli dövlət quruculuğu konsepsiyasının Naxçıvan mərhələsi // Xalq qəzeti. - 2024. - 6 fevral. - № 25. - S. 5.

**Məmmədov E**. İnkişaf yeni mərhələyə qədəm qoyur : "Heydər Əliyev ili"ni hərtərəfli inkişafla başa vuran Naxçıvan "Muxtariyyət ili"ndə daha böyük uğurlar üçün geniş yol açıb // Azərbaycan. - 2014. - 6 fevral. - № 25. - S. 6.

**Məmmədova B.** Yüz ilin Naxçıvanı // 525-ci qəzet. - 2024. - 8 fevral. - № 24. - S. 11.

**Məmmədova M**. Naxçıvan - 5000 illik tarix, 100 illik muxtariyyət // Səs. - 2024. - 9 fevral. - № 25. - S. 8-9.

**Məmmədova M**. Naxçıvan Muxtar Respublikası - 100 // Səs. - 2024. - 24 yanvar. - № 13. - S. 5-6.

**Məmmədova M.** Naxçıvan Muxtar Respublikası - 100 : Heydər Əliyev və blokada Naxçıvanı // Səs. - 2024. - 17 yanvar. - № 8. - S. 5 - 6.

Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (14 yanvar 2014-cü il) // Ədəbiyyat qəzeti. - 2014. - 17 yanvar. - № 2. - S. 1.

**Rəhimov Y**. Naxçıvanın muxtariyyəti - mühüm tarixi nailiyyət : Naxçıvan Muxtar Respublikası - 100 // 525-ci qəzet. - 2024. - 16 fevral. - № 30. - S. 12.

**Rəhimov Y**. Naxçıvanın muxtariyyəti tarixi zərurətdən yaranmışdı : Naxçıvan Muxtar Respublikası - 100 // İki sahil. - 2024. - 10 fevral. - № 26. - S. 7.

**Rəsulova R**. Naxçıvan - İslam mədəniyyətinin incisi // Xalq qəzeti. - 2017. - 5 may. - № 95. - S. 12.

**Rəsulova R.** Naxçıvan jurnalistikası dünya mediasına uğurla inteqrasiya edir // İki sahil. - 2019. - 4 dekabr. - № 224. - S. 11.

**Sadıqov A.** Heydər Əliyev və Naxçıvan Abidələri // İki sahil. - 2014. - 3 aprel. - № 55. - S. 21.

**Səbzəliyeva S**. Nuhun yurdu - dünyanın nəqşi : Naxçıvan Muxtar Respublikası - 100 // İki sahil. - 2024. - 13 fevral. - № 27. - S. 5.

**Səfərli F.** Naxçıvanın İslam mədəniyyətinin paytaxtı seçilməsi onun zəngin tarixinin və mədəni irsinin təbliğinə öz töhfəsini verəcək : Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Fəxrəddin Səfərli ilə müsahibə / söhbətləşdi R.Əkbərova // Yeni Azərbaycan. - 2017. - 24 noyabr. - № 215. - S. 4.

**Şirəliyev A**. Naxçıvan MR - də əhalinin məşğulluğunun təminatına xüsusi diqqət var : Ötən ilin sonunda muxtar respublikada bu sahə üzrə xüsusi Dövlət Proqramı qəbul olunmuşdur // Azərbaycan. - 2014. - 4 fevral. - № 23. - S. 10.

**Yunisli F**. Səndə tarixlərin çox nişanı var... : Naxçıvan Muxtar Respublikası - 90 // Mədəniyyət. - 2014. - 19 fevral. - № 13. - S. 7.

**Yurdoğlu E**. Naxçıvan halay və yallıları ilk dəfə komleks tədqiqat işığında // 525-ci qəzet. - 2022. - 11 fevral. - № 26. - S. 14.

# Şərqin qapısı - Naxçıvan

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**